HƏR BİR VƏTƏNDAŞ VERGİ ÖDƏMƏKDƏN ŞƏRƏF DUYMALIDIR

# Vergilər



Biz bazar iqtisadiyyatını vergi yolu ilə tənzimləməliyik.

Heydər ƏLİYEV

№ 03 (845) ▪ 25 yanvar 2017 www.vergiler.az Qiyməti: 55 qəp.

## Prezident İlham Əliyev: *«Azərbaycanın enerji resursları İpək Yolunun bərpasında mühüm rol oynayıb»*

Yanvarın 19-da Dünya İqtisadi Forumunun «İpək Yolunun səmərəsi» adlı interaktiv iclası keçirilib. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iclasda çıxış edib və sualları cavablandırıb.




Prezident İlham Əliyev İpək Yolunun strateji əhəmiyyətinə toxunaraq bildirib ki, regionda etibarlı siyasi münasibətlər olmazsa, biz yalnız nəqliyyat infrastrukturuna investisiya yatırmaqla müvəffəqiyyət qazanmayacağıq: «Azərbaycan İpək Yolunun bizə aid olan seqmentinin yenidən qurulmasına birbaşa investisiya yatırmış və eyni zamanda, regional əməkdaşlığa gətirib çıxaran təşəbbüslərə start verərək siyasi cəhətdən də bu layihəyə dəstək olmuşdur. Regional əməkdaşlıqdan danışdıqda bu, çox geniş əməkdaşlıqdır. Çünki bu əməkdaşlıq siyasi, iqtisadi, mədəni və digər sektorları əhatə edir. Buna görə də bizim niyyətimiz həmişə ölkələrə, insanlara fayda verəcək, regionda planlaşdırıla bilən, sabitliyi artıran və regionumuzda yaşayan bütün insanlar üçün bərabər imkanlar yaradan layihələrə başlamaq və onlarda iştirak etmək olmuşdur. Buna görə də Azərbaycan İpək Yolunun bizə aid olan seqmentinin yenidən qurulmasında həmişə fəal rol oynamışdır».

İpək Yolu layihəsinin reallaşmasında Çinin fəaliyyəti və bu layihədə iqtisadi diplomatiyanın rolu barədə sualın cavabında dövlətimizin başçısı bildirib ki, layihə ilə bağlı Çinin «Bir kəmər - bir yol» baxışı üst-üstə düşür: «Artıq İpək Yolu test rejimində fəaliyyət göstərir. Keçən il ilk konteyner test qatarı Çindən yola düşərək Mərkəzi Asiyadan, Xəzər regionundan, Azərbaycan, Gürcüstan və Avropadan keçərək gəlmişdir. Biz bu yolun təchizatçılar üçün necə cəlbedici olması üzərində çalışırıq. Eyni zamanda, qeyd etdiyim kimi, bu layihə təkcə investisiyalar və nəqliyyat infrastrukturundan ibarət deyil, - baxmayaraq ki, bunlar çox önəmlidir, - bu layihə həm də qarşılıqlı bağlılıq yaradır. Qarşılıqlı bağlılıq isə dostluğu gücləndirir. İpək Yolu üzərində yerləşən bütün ölkələrin bir-biri ilə yaxşı işçi münasibətləri olduğuna görə biz çox xoşbəxtik. Lakin bu qarşılıqlı bağlılıq bunu daha da gücləndirəcək».

Prezident İlham Əliyev İpək Yolunda kiber təhlükəsizliyi ilə bağlı fikirlərə də münasibət bildirib. Qeyd edib ki, İKT sektoru Azərbaycan üçün prioritet sayılan sahələrdəndir: «Biz bu sahəni inkişaf etdirmək üçün investisiya yatırmışıq. Əhalimizin 75 faizindən çoxu internet istifadəçisidir. Hər bir kəndə genişzolaqlı interneti gətirmək üçün dövlət tərəfindən maliyyələşdirilən proqramımız var. Əlbəttə ki, biz kiber təhlükəsizliklə bağlı məsələlər üzərində də çalışırıq. Biz hələ bu təhlükələrə məruz qalmamışıq. Lakin ölkə nə qədər çox inkişaf edərsə, o, bir o qədər də risklərlə üzləşir. Başqa bir layihə də var. Onun adı TASİM-dir. Bu, İpək Yolu ilə eyni dəhliz üzərindən keçən kommunikasiya xəttidir. Əslində, bu dəhlizlər bir-biri ilə bağlıdır. Məsələn, indi biz enerji resursları haqqında danışırdıq. Sizə deyə bilərəm ki, Azərbaycanın enerji resursları İpək Yolunun bərpasında mühüm rol oynamışdır».

İpək Yolu layihəsinin icrası zamanı özəl sektorun investisiyalarının cəlb olunmasının əhəmiyyətindən bəhs edən Prezident İlham Əliyev qeyd edib ki, Azərbaycanda bütün əsas nəqliyyat infrastruktur layihələri dövlət büdcəsindən və Dövlət Neft Fondundan maliyyələşdirilmişdir: «Çünki, birincisi, özəl sektorun investisiya yatırmaq üçün kifayət qədər vəsaiti yox idi və ikincisi, bu, strateji və uzunmüddətli investisiya idi. Bu investisiyalar uzun illər ərzində özünü doğruldacaq və gəlir gətirəcəkdir. Buna görə dəmir yolu infrastrukturu, Xəzər gəmiçiliyi, hava yolları, yollar, İpək Yolu - hər şey dövlət vəsaiti hesabına edilir. Lakin bu, özəl sektor üçün də imkanlar yaradır. Mən Bakıda yeni limanın tikintisini qeyd etdim. Bizim artıq azad zona kimi bir neçə min hektar torpaq ərazimiz var və bu, dəniz limanının yaxınlığında yerləşir. Bütün yerli və xarici şirkətlər bu layihədə iştirak etməyə və istehsal prosesinə qoşulmağa dəvət olunurlar. Eyni zamanda, Azərbaycanın müxtəlif bölgələrində xüsusi sənaye zonaları təşkil etmək üçün biz xüsusi infrastruktur yaradırıq və orada su, qaz, elektrik enerjisi, yollar, dəmir yolu olduqda özəl sektor artıq investor qismində iştirak edir».

## Şəhidlərin əziz xatirəsi yad olunub

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev yanvarın 20-də - Ümumxalq Hüzn Günündə Qanlı Yanvar faciəsində həlak olanların əziz xatirəsini yad etmək üçün Şəhidlər xiyabanına gəlib.

Dövlətimizin başçısı «Əbədi məşəl» abidəsinin önünə əklil qoyub. Müdafiə Nazirliyinin əlahiddə nümunəvi hərbi orkestrinin ifasında Azərbaycanın dövlət himni səsləndirilib. Dövlət və hökumət rəsmiləri, respublikamızdakı dini icmaların başçıları, xarici ölkələrin Azərbaycandakı səfirləri, beynəlxalq təşkilatların nümayəndələri də şəhidlərin əziz xatirəsini yad etməyə gəliblər.

Qara Yanvar hadisələrindən 27 il keçir. 1990-cı il yanvarın 20-si Azərbaycanın müasir tarixinə ən faciəli günlərdən biri, eyni zamanda, xalqımızın qəhrəmanlıq səhifəsi kimi daxil olub, milli müstəqillik, azadlıq uğrunda mübarizəsinin və yenilməz iradəsinin rəmzinə çevrilib. Təpədəndırnağadək silahlanmış keçmiş sovet ordusunun cəza tədbirlərinə məruz qalan xalqımız azadlıq əzmini itirməmiş, əksinə, haqq səsini daha ucadan bəyan etmişdi. Düz 27 il əvvəl doğma yurdunun, xalqının azadlığını, şərəf və ləyaqətini hər şeydən uca tutan vətənpərvər Azərbaycan övladları həmin müdhiş gecədə canlarından keçərək şəhidlik zirvəsinə ucaldılar. Sovet qoşunlarının Azərbaycanda törətdiyi qanlı qırğından uzun illər keçməsinə baxmayaraq, xalqımız o dəhşətli günlərin ağrı-acısını unutmur, öz vətəndaşlarına divan tutan sovet imperiyasının o vaxtkı rəhbərlərinə və onların Azərbaycandakı nökərlərinə dərin nifrətini bildirir.

Həmin vaxt Moskvada yaşayan xalqımızın dahi oğlu Heydər Əliyev həyatını təhlükədə qoyaraq, faciənin ertəsi günü Azərbaycanın daimi nümayəndəliyinə gələrək, Qanlı Yanvar qırğınını törədənləri pisləyən kəskin bəyanatla çıxış etdi, xalqımızın başına gətirilən müsibəti dünyaya çatdırdı. Bununla da ulu öndər cəsarətini, mərdliyini, xalqının sədaqətli oğlu olduğunu bir daha sübut etdi. Ümummilli lider Heydər Əliyevin Azərbaycan rəhbərliyinə yenidən qayıdışından sonra, 1994-cü ildə 20 Yanvar hadisələrinə siyasi-hüquqi qiymət verildi və cinayəti törədənlərin adları ictimaiyyətə çatdırıldı, 20 Yanvar - Ümumxalq Hüzn Günü elan edildi.

## Azərbaycan transmilli layihələrin reallaşmasında mühüm rol oynayır

Prezident İlham Əliyev Davosda Dünya İqtisadi Forumunun icraçı sədri Klaus Şvab ilə görüşüb. Azərbaycan ilə Forum arasında səmərəli əməkdaşlıq əlaqələrinin qurulduğunu deyən dövlətimizin başçısı bu əməkdaşlığın Davos Forumunun dünya ölkələrində vəziyyətin yaxşılaşdırılması ilə bağlı məqsədlərinə tam uyğun gəldiyini qeyd edib. Ölkəmizin yerləşdiyi coğrafi məkanın əhəmiyyətini vurğulayan Prezident İlham Əliyev bu amilin iri transmilli layihələrin, o cümlədən Şimal-Cənub, Şərq-Qərb nəqliyyat və digər layihələrin uğurla reallaşmasına rəvac verdiyini bildirib. Son illərdə ölkəmizdə gedən inkişaf proseslərindən danışan dövlətimizin başçısı Azərbaycanın yeni inkişaf mərhələsinə daxil olduğunu qeyd edib və iqtisadiyyatın, həmçinin ixracatın şaxələndirilməsi istiqamətində təsirli tədbirlərin görüldüyünü diqqətə çatdırıb.

Klaus Şvab Azərbaycan ilə Dünya İqtisadi Forumu arasındakı əməkdaşlığın səmərəli olduğunu, Azərbaycan Prezidentinin bu Forumda iştirakının ikitərəfli əməkdaşlığa töhfə verdiyini vurğulayıb. Son illərdə ölkəmizdə böyük işlərin görüldüyünü, Bakının mötəbər beynəlxalq tədbirlərə ev sahibliyi etdiyini deyən Dünya İqtisadi Forumunun icraçı sədri Azərbaycanda mövcud olan tolerantlıq mühitini yüksək qiymətləndirib.

## Azərbaycan Ordusunun döyüş qabiliyyəti günü-gündən daha da artır



Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyev yanvarın 23-də Müdafiə Nazirliyinin Abşeron rayonunun Pirəkəşkül qəsəbəsində «N» saylı hərbi hissəsinin yeni inşa edilmiş hərbi şəhərciyinin açılışında iştirak edib. Dövlətimizin başçısına məlumat verilib ki, yeni hərbi şəhərcik 42 hektar ərazidə yerləşir. Burada tikinti işləri 2014-cü ilin mayında başlanıb, ötən ilin sonunda isə yekunlaşıb. Şəhərcikdə zabit, gizir və çavuşlar üçün 9 yaşayış binası inşa edilib. Onlardan 4-ü ailəli, 5-i isə subay hərbi qulluqçular üçündür. Ərazidə ümumilikdə 13 əsgər yataqxanası tikilib. Hərbi şəhərcikdə inzibati, xidməti və texniki binalar da inşa edilib. Hərbi şəhərciyin qərargah binası müasir səviyyədə yaradılıb. Burada hərbi hissə növbətçisi, istirahət, qonaq və digər xidməti otaqlar var. Qərargah binasında Şərəf otağı, brifinq və akt zalları da hərbçilərin ixtiyarına verilib. Ərazidə xüsusi tibbi avadanlıqla təchiz edilmiş 76 çarpayılıq, ikimərtəbəli tibb məntəqəsi də tikilib. Burada UZİ, elektrokardioqram, rentgen, diaqnostika, lor, oftalmoloji, stomatoloji, fizioterapiya kabinetləri, laboratoriya yaradılıb.

Hərbi şəhərcikdə bütün avadanlıqla təchiz edilmiş yeməkxana inşa edilib. 1790 yerlik yeməkxanada əsgər və zabitlərin dolğun qidalanması üçün hərtərəfli şərait vardır. Yeməkxana kompleksində çörək istehsalı sahəsi də fəaliyyət göstərir. Ərazidə şəxsi heyətin uzunmüddətli yerləşməsi məqsədilə yataq, məişət və xidməti sahələrdən ibarət əsgər yataqxanaları tikilib.

Prezident İlham Əliyevə hərbi hissədəki texnika barədə də məlumat verilib. Bildirilib ki, hərbi hissədə zirehli avtomobil və texnikaların yerləşdirilməsi üçün xüsusi yerlər inşa edilib. Hərbi texnika üçün parkın ərazisində yeni avadanlıqla təchiz edilmiş texniki nəzarət, qulluq, təmir, yanacaqdoldurma və digər məntəqələr tikilib.

Hərbi şəhərcikdə yaradılan şəraitlə tanışlıqdan sonra dövlətimizin başçısı hərbi qulluqçularla görüşüb. Dövlətimizin başçısı bildirib ki, bu şəhərciyin inşa edilməsi Azərbaycanda ordu quruculuğuna böyük diqqətin yetirildiyini bir daha göstərir: «Son bir neçə il ərzində iyirmidən çox hərbi şəhərcik tikilib və əsaslı şəkildə təmir edilib. Bu gün hərbi hissələrimizin mütləq əksəriyyəti demək olar ki, bu səviyyədədir. Ümid edirəm ki, növbəti bir-iki il ərzində yararsız vəziyyətdə bir dənə də hərbi infrastruktur olmayacaq».

Ordu quruculuğu prosesinin Azərbaycanda dövlət siyasəti olduğunu deyən dövlətimizin başçısı bildirib ki, hərbçilərin məişət problemləri də öz həllini tapır, onların həm xidmət, həm də məişət şəraiti daim diqqət mərkəzində saxlanılır: «Bizim ordumuz güclü ordular sırasındadır. Son illər ərzində ordumuzun maddi-texniki təminatı böyük dərəcədə inkişaf edib. Bu gün təminat-təchizat baxımından yüksək səviyyəyə malik olan Azərbaycan Ordusu istənilən vəzifəni icra edə bilər. Biz son illər ərzində bir çox ölkələrdən ən müasir texnika, silah-sursat almışıq ki, bu texnika və silahlar bu gün bizim ordu potensialımızı gücləndirir. Bir neçə ölkədən alınmış onlarla döyüş təyyarəsi, 100-dən çox hərbi və hərbi nəqliyyat vertolyotu, hava hücumuna qarşı müxtəlif müasir sistemlər bizim müdafiə gücümüzü artırır. Ordumuzun döyüş qabiliyyəti bu gün dünya ictimaiyyəti tərəfindən də yüksək qiymətləndirilir. Həm döyüş qabiliyyəti, həm hərbi-texniki təminat baxımından bu gün Azərbaycan Ordusu, sözün əsl mənasında, güclü ordular sırasındadır».

Keçən ilin aprel ayında Azərbaycan Ordusunun erməni silahlı təxribatının qarşısını alaraq düşmənə sarsıdıcı zərbələr endirməsini böyük hərbi qələbə adlandıran Ali Baş Komandan bütün bu uğurların təməlində düşünülmüş siyasət dayandığını diqqət çatdırıb: «Ordu quruculuğu prosesi Azərbaycanda ardıcıllıqla icra edilir. Biz bu gün özümüzü beynəlxalq aləmdə çox etibarlı tərəfdaş kimi təqdim etmişik. Bizim işimiz haqq işidir və biz öz torpağımız uğrunda vuruşuruq. Dağlıq Qarabağ əzəli Azərbaycan torpağıdır. Əsrlər boyu Azərbaycan xalqı Dağlıq Qarabağda yaşayıb-yaratmışdır. Orada yerləşən tarixi, dini abidələrimiz bizim qədim mədəniyyətimizi əks etdirir. Təkcə Dağlıq Qarabağ deyil, indiki Ermənistanın ərazisi tarixi Azərbaycan torpağıdır».

Prezident İlham Əliyev gələcəkdə Azərbaycanın daha da güclü dövlətə çevriləcəyinə əminliyini ifadə edib: «Şübhə yoxdur ki, biz öz ərazi bütövlüyümüzü bərpa edəcəyik. Bunu şərtləndirən bir çox amillər var, onlardan birincisi güclü Azərbaycan Ordusudur və bu, bizim əsas vəzifəmizdir, əsas məqsədimizdir».

### BU NÖMRƏMİZDƏ

VERGİ ÖDƏYİCİLƏRİNİN HÜQUQ VƏ VƏZİFƏLƏRİ GENİŞLƏNDİRİLİR 2
VERGİ BƏYANNAMƏLƏRİNİN FORMALARINA DƏYİŞİKLİK EDİLİB 3
İSLAHATLAR SAHİBKARLIĞIN DAHA DA SAĞLAMLAŞMASINA ZƏMİN YARADIR 4
ƏSAS İQTİSADİ PRİORİTETLƏRDƏN BİRİ 6

Vergilər

# 20 Yanvar şəhidləri anılıb

**Vergilər Nazirliyində 20 Yanvar faciəsinin 27-ci ildönümünə həsr olunmuş anım mərasimi keçirilib. Tədbir açıq elan edildikdən sonra şəhidlərin xatirəsi bir dəqiqəlik sükutla yad edilib.**






Mərasimdə çıxış edən Dövlət Təhlükəsizlik Xidmətinin Heydər Əliyev adına Akademiyasının kafedra rəisi, filologiya elmləri doktoru, professor Cəlal Qasımov bu qanlı hadisənin tarixi kökləri, onu doğuran səbəblər barədə ətraflı məlumat verərək bildirib ki, Azərbaycan xalqı 1990-cı ilin qanlı 20 Yanvarını həm faciə, həm də qəhrəmanlıq səhifəsi kimi yaşayıb. Sovet imperiyası rəhbərliyinin qabaqcadan düşünülüb hazırlanmış bu təcavüzkarlıq aksiyası Azərbaycan xalqının demokratiya və milli azadlıq uğrunda mübarizəsini boğmaq və ona mənəvi zərbə vurmaq məqsədi daşıyırdı. Törədilmiş cinayətlər nəticəsində 147 nəfər qətlə yetirilib, 744 nəfər yaralanıb, 841 nəfər qanunsuz həbs olunub, yüzlərlə bina dağıdılıb, dövlətə və vətəndaşlara külli miqdarda ziyan dəyib.

Bütün bunlara baxmayaraq, bu qanlı əməllər Azərbaycan xalqının iradəsini qıra bilməyib, 20 Yanvar milli azadlıq hərəkatının daha da yüksəlməsinə və nəticədə Azərbaycanın yenidən müstəqilliyə qovuşmasına gətirib çıxarıb.

Qeyd olunub ki, qanlı yanvar hadisələrinə əsl siyasi-hüquqi qiymət yalnız ümummilli lider Heydər Əliyevin yenidən siyasi hakimiyyətə qayıtmasından sonra verilib, faciənin günahkarlarının adları açıqlanıb. Məhz ulu öndərin tövsiyəsi ilə 1994-cü ilin fevral ayında Milli Məclisin xüsusi sessiyası keçirilib. Həmin iclasda 20 Yanvar faciəsi Azərbaycan xalqına qarşı hərbi təcavüz və cinayət kimi qiymətləndirilib və bu hadisələrə görə məsuliyyətin o dövrdəki respublika rəhbərliyinin üzərinə düşdüyü vurğulanıb.

Qeyd olunub ki, ulu öndər Heydər Əliyev 20 Yanvar şəhidlərinin xatirəsini daim əziz tutub, onun göstərişi və bilavasitə iştirakı ilə Şəhidlər xiyabanında şəhidlərin adlarını əbədiləşdirən möhtəşəm abidə kompleksi ucaldılıb, 1990-cı il yanvarın 20-də keçmiş SSRİ silahlı qüvvələrinin Bakıya və respublikanın bir neçə rayonuna hərbi təcavüzü zamanı həlak olmuş 147 nəfərə «20 Yanvar şəhidi» fəxri adı verilib.

Mərasimdə çıxış edən Vergilər Nazirliyinin əməkdaşları qeyd ediblər ki, 20 Yanvar qurbanlarının xatirəsini xalqımız daim əziz tutur, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev həmişə şəhid ailələrinə, eləcə də itkin düşənlərin ailələrinə və əlillərə lazımi diqqət və qayğı göstərir.

Çıxışlarda xüsusi olaraq vurğulanıb ki, 1990-cı ilin Qanlı Yanvar hadisəsi ləyaqətini qorumaq üçün hər cür qurban verməyə hazır olan xalqımızın tarixində şərəfli bir səhifə kimi xatırlanacaq, 20 Yanvar faciəsi qurbanlarının xatirəsi daim qəlblərdə yaşayacaq.

Tədbir iştirakçıları 20 yanvar hadisələri ilə bağlı Vergilər Nazirliyinin foyesində təşkil edilmiş foto və kitab sərgisi ilə də tanış olublar.

## 2016-cı il ərzində...

Vergilər Nazirliyinin Çağrı Mərkəzinin əməkdaşları tərəfindən canlı əlaqə zamanı daxil olmuş 220.399 zəng üzrə 238.889 sual cavablandırılıb. Vergi ödəyicilərinin məlumatlandırılması məqsədilə onlara 1.737.459 SMS, ikitərəfli mesaj xidmətinin istifadəçilərinə isə 298.043 SMS göndərilib.

Vergilər Nazirliyinin rəsmi internet səhifəsinə 4.493.844 daxilolma qeydə alınıb. Vergi ödəyicilərinə xidmət strukturlarında 507.804 vətəndaş qəbul edilib, onlara 816.698 xidmət göstərilib. 2017-ci ilin 1 yanvar tarixinə vergi ödəyicilərinə verilmiş «ASAN imza» sertifikatlarının ümumi sayı 255.536 olub.

## Vergi ödəyicilərinin hüquq və vəzifələri genişləndirilir

**Vergi Məcəlləsinə edilmiş son dəyişiklik və əlavələrdə vergi ödəyicilərinin hüquq və vəzifələrinə də xüsusi əhəmiyyət verilib. Bu istiqamətdə Məcəlləyə 15.1.2-1-ci, 16.1.4-1-ci, 16.1.7-1-ci və 16.1.11-3, 16.1.11-8-ci maddələr əlavə edilib, 15.1.10-cu və 16.1.4-cü maddələrdə dəyişikliklər edilib, 16.1.8-ci və 16.1.11-1-ci maddələr yeni redaksiyada təsdiq olunub, vergi agentinin öhdəliyinə aid 17.6-cı maddə əlavə edilib.**

Vergilər Nazirliyinin Vergi ödəyicilərinə xidmət və şəffaf vergi partnyorluğu departamentinin şöbə rəhbəri Rəşad Qarayev Məcəllədə vergi ödəyicilərinin hüquq və vəzifələrini əhatə edən dəyişiklikləri şərh edərək bildirib ki, vergi öhdəliyinin əvvəlcədən müəyyənləşdirilməsi barədə qərarın qəbul olunması məqsədilə vergi orqanlarına ərizə ilə müraciət etmək, qanunvericiliklə müəyyən olunmuş qaydada kommersiya və ya vergi sirrinin qorunmasını tələb etmək artıq vergi ödəyicisinin hüquqlarına aid edilib. Hesabat ilindən sonrakı ilin mart ayının 31-dən gec olmayaraq təqvim ili ərzində ölkə rezidenti ilə onunla qarşılıqlı surətdə asılı olan qeyri-rezident şəxslər, qeyri-rezidentin ölkəmizdəki daimi nümayəndəliyi ilə həmin qeyri-rezidentin özü və ya onun başqa dövlətlərdə yerləşən hər hansı nümayəndəliyi Azərbaycan Respublikasının rezidenti və ya qeyri-rezidentin daimi nümayəndəliyi ilə güzəştli vergi tutulan ölkələrdə təsis edilmiş subyektlər ümumi dəyəri 500 min manatdan artıq olan əməliyyatlara dair Vergilər Nazirliyinin müəyyən etdiyi formada arayış təqdim etməlidirlər. Həmçinin qeyd olunan şəxslərin özlərinə dair məlumatları da vergi orqanının tələbi ilə təqdim etmək kimi vəzifələri var: «Vergi ödəyicilərinin digər vəzifəsi sadələşdirilmiş vergi üzrə sabit vergi məbləği ödəyən şəxslərin nəzərdə tutulan fəaliyyət növlərini «Sadələşdirilmiş vergi üzrə sabit məbləğin ödənilməsi haqqında qəbz» almaqla həyata keçirməkdir: «Bundan başqa, vergi ödəyiciləri qəzet və jurnalların satışı, kənd təsərrüfatı məhsullarının bazarlarda, yarmarkalarda və səyyar qaydada satışı, səyyar, bazarlarda və digər kütləvi ticarət yerlərində piştaxtadan, avtomobildən və qoşqu vasitələrindən pərakəndə satış fəaliyyəti, qiymətli kağızların və lotereya biletlərinin satışı, elektrik enerjisi, qaz, su, isti su təchizatı və mərkəzi qızdırma sistemi obyektlərinin fəaliyyəti istisna olmaqla pərakəndə ticarət və ictimai iaşə fəaliyyəti üzrə nağd pul hesablaşmalarını nəzarət-kassa aparatı vasitəsilə həyata keçirməlidirlər. Nağdsız ödənişlərin aparılması üçün «İstehlakçıların hüquqlarının müdafiəsi haqqında» Qanuna uyğun olaraq POS-terminallar quraşdırmaq və «Elektron ticarət haqqında» Qanuna uyğun olaraq satıcı kimi fəaliyyət göstərdikdə, həmin qanuna əsasən, istehlakçıların elektron ödəniş etmək imkanını təmin etməlidirlər».

Vergi ödəyicilərinin digər bir vəzifəsi isə vergi orqanının tələbinə əsasən maliyyə institutlarında vergi monitorinqinin aparılması ilə bağlı vergi və maliyyə məlumatlarının mübadiləsini nəzərdə tutan ölkəmizin tərəfdar çıxdığı beynəlxalq müqavilələrə əsasən həyata keçirilən maliyyə əməliyyatları barədə sənədləri və məlumatları vergi orqanlarına və onların vəzifəli şəxslərinə təqdim etməkdir: «Maliyyə institutları tərəfindən hüquqi və fiziki şəxslərə hesab açıldıqda və ya maliyyə xidmətləri göstərildikdə, Azərbaycan Respublikasının normativ hüquqi aktlarının, habelə vergi və maliyyə məlumatlarının mübadiləsini nəzərdə tutan ölkəmizin tərəfdar çıxdığı beynəlxalq müqavilələrin tələblərinə əməl edilməsini və Vergi Məcəlləsinə uyğun olaraq maliyyə institutları tərəfindən təqdim edilməsi nəzərdə tutulan məlumatların əks olunduğu və forması Vergilər Nazirliyi tərəfindən təsdiq edilən elektron hesabatları təqdim etməlidirlər».




Vergi ödəyicisi qanunla nağd qaydada həyata keçirilməsi məhdudlaşdırılan əməliyyatlarını yalnız nağdsız qaydada həyata keçirməlidir: «Vergi Məcəlləsi ilə müəyyən edilmiş hallarda və qaydada vergi orqanlarının vəzifəli şəxslərinə əmlakın siyahıya alınmasına, onların bu sahədə qanuni fəaliyyətlərinə vergi ödəyiciləri maneçilik törətməməlidirlər. Sahibkarlıq fəaliyyəti həyata keçirən hüquqi və fiziki şəxslərə malların təqdim edilməsi ilə bağlı Vergi Məcəlləsində nəzərdə tutulmuş qaydada qaimə-faktura və ya elektron qaimə-faktura verməlidirlər. Pərakəndə ticarət və ictimai iaşə fəaliyyəti zamanı malların (işlərin, xidmətlərin) alıcılarına onların tələbinə əsasən nəzarət-kassa aparatının çeki ilə yanaşı, qaimə-faktura və ya elektron qaimə-faktura və ya elektron vergi hesab-fakturası təqdim edilməlidir».

Qeyri-rezident şəxsin təyin etdiyi vergi agentinin təyin olunduqdan sonra 30 gün ərzində vergi orqanlarına Vergilər Nazirliyinin müəyyən etdiyi formada arayış təqdim edilməsi ilə bağlı öhdəliyi də var: «Vergi ödəyiciləri hüquqlarından istifadə etməklə öz vəzifələrini lazımi qaydada icra edərsə, qanunvericiliklə müəyyən edilmiş maliyyə sanksiyaları və cərimələrlə rastlaşmazlar».

**AYTƏN**

## Vergi ödəyiciləri məlumatlandırılır

Bakı şəhəri Kiçik sahibkarlarla iş Departamentində Vergi Məcəlləsinə edilən əlavə və dəyişikliklərin, eləcə də struktur dəyişiklikləri ilə bağlı vergi ödəyicilərinin məlumatlandırılması məqsədilə yanvarın 17-dən 21-dək müxtəlif sahələrdə fəaliyyət göstərən vergi ödəyiciləri ilə görüşlər keçirilib.

Vergi ödəyicilərinə xidmət və şəffaf vergi partnyorluğu Departamentinin baş direktoru Ələkbər Məmmədov bildirib ki, Vergi Məcəlləsinə dəyişikliklərlə yanaşı, digər normativ sənədlər qəbul edilib, normativ aktlara müvafiq dəyişikliklər aparılıb. Onun sözlərinə görə, bu dəyişikliklərin həyata keçirilməsi vergi yükünün azaldılmasına yönəldilib: «Vergi Məcəlləsinə həm kəmiyyət, həm də mahiyyətcə kifayət qədər böyük dəyişikliklər edilib. Ümumilikdə 201 dəyişiklikdən 123-ü vergi inzibatçılığının təkmilləşdirilməsi, vergi sahəsində uçot və qeydiyyatın asanlaşdırılması, 34-ü vergi ödəyicilərinin hüquqlarının genişləndirilməsi, 8-i isə vergi yükünün azaldılması, azadolmalar və güzəştlər barədədir. Bu dəyişikliklər ölkədə biznes mühitinin, sahibkarlıq mühitinin yaxşılaşdırılmasına istiqamətləndirilib. Qarşıya qoyulan vəzifələrin həlli üçün vergi sistemində yeni struktur dəyişikliklərinə ehtiyac duyulurdu. Aparılan struktur islahatları çərçivəsində Bakı lokal gəlirlər Departamenti, Milli gəlirlər Departamenti, Kiçik sahibkarlıqla iş Departamenti yaradılıb».

Bildirilib ki, vergi ödəyicilərinin uçota alınmasının operativliyinin təmin olunması məqsədilə fiziki şəxslərin uçota alınması müddəti minimuma endirilib: «Əvvəlki qanunvericiliyə əsasən fiziki şəxslərin uçota alınması müddəti 2 gün ərzində həyata keçirilirdi. Təbii ki, burada söhbət elektron qaydada uçota alınmadan getmir. Çünki elektron formada uçota alınma bir neçə dəqiqə ərzində baş verir. Yeni dəyişikliyə əsasən fiziki şəxslərin uçota alınması 1 gün ərzində həyata keçiriləcək».

Qeyd edilib ki, Məcəllədə yer alan əsas məsələlərdən biri topdan və pərakəndə ticarətlə məşğul olan vergi ödəyicilərinin meyarlarının müəyyənləşdirilməsidir. Məcəlləyə topdan və pərakəndə ticarət fəaliyyəti ilə məşğul olan vergi ödəyicilərini fərqləndirən meyarları nəzərdə tutan anlayışlar, sahibkarlıq fəaliyyəti subyektləri arasında malların, işlərin və xidmətlərin təqdim edilməsi ilə bağlı elektron qaimə-fakturanın təqdim olunmasına dair maddələr daxil edilib. ƏDV-nin məqsədləri üçün qeydiyyata alınmış və vergi tutulan əməliyyatlarının həcmi ardıcıl 12 aylıq dövrün istənilən aylarında 200.000 manatdan artıq olan ticarət və ictimai iaşə fəaliyyəti ilə məşğul olan şəxslər tərəfindən sahibkarlıq fəaliyyəti ilə əlaqədar təqdim edilmiş mallara, görülmüş işlərə və göstərilmiş xidmətlərə görə 1 aprel 2017-ci il tarixdən, bütün digər vergi ödəyiciləri tərəfindən isə 1 yanvar 2018-ci il tarixdən malların, işlərin və xidmətlərin alıcısı olan hüquqi şəxslərə və fərdi sahibkarlara elektron qaimə-faktura təqdim edilməlidir.

Bu dəyişiklik sahibkarlar arasında aparılan əməliyyatların rəsmiləşməsi prosedurunun sadələşməsinə, operativliyin təmin edilməsinə, inzibatçılıq xərclərinin azaldılmasına və s.xidmət edir».

«Nağdsız hesablaşmalar haqqında» Qanuna əsasən, ƏDV məqsədləri üçün qeydiyyata alınmış və vergi tutulan əməliyyatlarının həcmi ardıcıl 12 aylıq dövrün istənilən aylarında 200 min manatdan artıq olan ticarət və ictimai iaşə fəaliyyəti ilə məşğul olan vergi ödəyiciləri 30 min manatdan, digər vergi ödəyiciləri isə 15 min manatdan artıq olan hesablaşmalar üzrə ödənişlərini yalnız nağdsız qaydada həyata keçirməlidirlər. İnzibati cərimələr, maliyyə sanksiyaları, vergilər, gömrük rüsumları və yığımları, lizinq əməliyyatları üzrə borcların ödənilməsi və kreditlərin verilməsi, sığorta ödənişləri, stasionar telefon xidmətləri və kommunal xərclər, vergi ödəyicilərinə faizsiz pul vəsaitlərinin və digər ayırmaların ödənilməsi və qaytarılması və qanunda nəzərdə tutulan digər ödənişlər yalnız nağdsız qaydada həyata keçirilməlidir.

«Vergi borclarının tənzimlənməsi haqqında» Qanunun əsas müddəaları şərh edilərək bildirilib ki, burada söhbət 1 yanvar 2017-ci ilə qədər olan borclardan gedir: «Qanunda əsas borcların silinməsi nəzərdə tutulmayıb. Faiz borcları və Vergi Məcəlləsinin 58.7-ci maddəsinə əsasən nağd əməliyyatların aparılması qaydalarının pozulmasına görə tətbiq edilmiş maliyyə sanksiyalarının qeyd-şərtsiz silinməsi nəzərdə tutulur və bu borclar artıq silinib. Digər maliyyə sanksiyaları üzrə isə 2017-ci ilin yanvar ayında borcun 30 faizi ödənildikdə 70 faizi, yanvar, fevral aylarında borcun 50 faizi ödənildikdə 50 faizi, yanvar, fevral, mart aylarında borcun 70 faizi ödənildikdə 30 faizi silinəcək».

Vergi ödəyicilərinə aksiz dərəcələrinə edilən dəyişikliklər, bəzi fəaliyyət növləri ilə məşğul olan fiziki şəxslər tərəfindən vergi öhdəliklərinin sabit məbləğdə sadələşdirilmiş qaydada vergi ödəməklə yerinə yetirilməsi qaydası, e-ticarətin vergiyə cəlb olunması, vergi yoxlamalarına aid müddəalarda edilmiş dəyişikliklər barədə də məlumat verilib.

Daha sonra tədbir vergi ödəyicilərinin suallarının nazirliyin əməkdaşları tərəfindən cavablandırılması ilə davam edib. Tədbirdə iştirak edən vergi ödəyiciləri belə görüşlərin keçirilməsini yüksək qiymətləndirdiklərini bildiriblər.

***Vergi ödəyicisi Gülşən Məlikova:*** «Vergi Məcəlləsinə əlavə və dəyişikliklərin edilməsi ölkə iqtisadiyyatının yeni reallıqları baxımından zəruri addım olmaqla yanaşı, bu dəyişiklikləri hər bir vergi ödəyicisinə çatdırmaq üçün belə görüşlərin keçirilməsi vacibdir. Çünki Məcəlləyə edilən dəyişiklikləri oxumaqla heç də hər şeyi anlamaq mümkün olmur. Bu səbəbdən də dəyişikliklərin vergi ödəyicilərinə izahına ehtiyac var. Görüşdə vergi orqanı əməkdaşları vergi ödəyicilərinə, eləcə də mənə aydın olmayan bir çox suallara aydınlıq gətirdilər. Bir məsələni də qeyd etmək istərdim ki, vergi ödəyicisi olaraq faiz borcum və maliyyə sanksiyasına əsasən hesablanmış borcum olmasa da, bu borcların silinməsini müsbət qiymətləndirirəm».

***Vergi ödəyicisi Qasım Nəcəfov:*** «Vergi Məcəlləsinə edilən bütün dəyişiklikləri oxumuşam, amma hesab edirəm ki, bəzi dəyişikliklərin vergi ödəyicilərinə sadə dildə izah edilməsi vacibdir. Əsasən, elektron qaimə-fakturanın tətbiqi, nağdsız hesablaşmaların məhdudlaşması ilə bağlı suallarım vardı və tədbirdə bu məsələlərə aydınlıq gətirildi. Hesab edirəm ki, belə tədbirlərin keçirilməsi Məcəllədə aydın olmayan məqamların aydınlaşmasına və vergi ödəyicilərinin vergi qanunvericiliyini daha yaxından mənimsəməsinə imkan verir».

**A. NƏBİYEVA**



Vergi ödəyicisinin sualı var...

Samirə Musayeva
Vergilər Nazirliyinin Vergi siyasəti və strateji araşdırmalar departamentinin baş direktoru vergi ödəyicilərinin suallarına cavab verir

## Sadələşdirilmiş vergi

***Bank hesablarından pul vəsaitlərinin nağd qaydada çıxarılması zamanı 1 faiz dərəcə ilə sadələşdirilmiş verginin tutulması yalnız sadələşdirilmiş vergi ödəyicilərinəmi aid edilir?***

Vergi Məcəlləsinin (VM) 150.3-3-cü maddəsinin müddəalarına əsasən, hüquqi şəxslərə və fərdi sahibkarlara bank hesablarındakı pul vəsaitlərinin nağd qaydada verilməsini həyata keçirən yerli banklar, xarici bankın Azərbaycan Respublikasındakı filialı və ya poçt rabitəsinin milli operatoru VM-in 220.12-ci maddəsinə uyğun olaraq sadələşdirilmiş vergini hesablamağa, vəsaiti alan şəxsin bank hesabından tutmağa və hesabat ayından sonrakı ayın 20-dən gec olmayaraq hesablanmış vergini dövlət büdcəsinə köçürməyə və müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi forma üzrə bəyannaməni vergi orqanına verməyə borcludurlar. Bu maddədə göstərilir ki, hüquqi şəxslər və fərdi sahibkarlar tərəfindən pul vəsaitlərinin nağd qaydada bank hesablarından çıxarılmasına görə 1 faiz dərəcəsi ilə sadələşdirilmiş vergi hesablanır.

**Qeyd olunanlara əsasən:**

Bank hesablarından pul vəsaitlərinin nağd qaydada çıxarılması zamanı 1 faiz dərəcə ilə sadələşdirilmiş verginin tutulması vergi orqanında uçotda olan hüquqi şəxslərə və fərdi sahibkarlara, o cümlədən ƏDV qeydiyyatında olan, sadələşdirilmiş verginin ödəyicisi olan, mənfəət və ya gəlir (xüsusi notariuslar istisna olmaqla) vergisinin ödəyicisi olan şəxslərə aid edilir.

**VERGİ ÖDƏYİCİLƏRİNİN NƏZƏRİNƏ!**

"Vergi ödəyicilərinin 2017-ci il 1 yanvar tarixinə mövcud olan vergi borclarının tənzimlənməsi haqqında" Azərbaycan Respub-likasının Qanununa əsasən, vergilərin Azərbaycan Respublikasının Vergi Məcəlləsi ilə müəyyən edilmiş müddətdə ödənilməməsinə görə hesablanmış faizlər üzrə 2017-ci il 1 yanvar tarixinə vergi orqanlarındakı şəxsi hesab vərəqələrində mövcud olan borclar, eləcə də vergi orqanları tərəfindən Vergi Məcəlləsinin 58.7 mad-dəsinə əsasən vergi ödəyicilərinə tətbiq edilən maliyyə sanksiyaları üzrə yaranmış, 2017-ci ilin 1 yanvar tarixinə vergi orqanlarındakı şəxsi hesab vərəqələrində mövcud olan borclar tamamilə silinir.

Vergi ödəyicilərinə tətbiq edilmiş digər maliyyə sanksiyaları üzrə yaranmış vergi borcları isə aşağıdakı qaydada silinə bilər:

- vergi ödəyiciləri tərəfindən 2017-ci ilin yanvar ayı ərzində həmin maliyyə sanksiyalarının 30 faizi ödənilərsə, qalan 70 faizi silinir;
- vergi ödəyiciləri tərəfindən 2017-ci ilin yanvar-fevral ayları ərzində həmin maliyyə sanksiyalarının 50 faizi ödənilərsə, qalan 50 faizi silinir;
- vergi ödəyiciləri tərəfindən 2017-ci ilin yanvar-mart ayları ərzində həmin maliyyə sanksiyalarının 70 faizi ödənilərsə, qalan 30 faizi silinir.

**Maliyyə sanksiyasının məbləğini 143490 büdcə təsnifatı kodu üzrə ödəməyiniz xahiş olunur**

Əlavə məlumat almaq istəyən vergi ödəyiciləri Vergilər Nazirliyinin 195 Çağrı Mərkəzinə, nazirliyin rəsmi internet saytına (www.taxes.gov.az), vergi ödəyicilərinə xidmət mərkəzlərinə, yaxud qeydiyyatda olduqları vergi orqanlarına müraciət edə bilərlər.

AZƏRBAYCAN RESPUBLİKASI VERGİLƏR NAZİRLİYİ

# Vergi bəyannamələrinin formalarına dəyişiklik edilib

«Azərbaycan Respublikasının Vergi Məcəlləsində dəyişiklik edilməsi haqqında» Qanunun qüvvəyə minməsi və bununla bağlı hüquqi tənzimləmə məsələləri haqqında ölkə Prezidentinin fərmanından irəli gələn tapşırıqların, habelə Vergilər Nazirliyinin Kollegiyasının qərarı ilə təsdiq edilmiş «Vergi sahəsində aparılan islahatların tətbiqi ilə bağlı Tədbirlər Planı»nın icrasının təmin edilməsi üçün nazirliyin kollegiyasının qərarı ilə bir sıra sənədlərin formaları və tərtib edilməsi qaydaları, o cümlədən «Vergi Məcəlləsinin 149.1.3-cü maddəsində göstərilən qeyri-rezident şəxsin təyin etdiyi vergi agenti barədə arayış» forması, «Maliyyə institutları tərəfindən məlumat verilməli hesablar barədə hesabat» forması və tərtib edilməsi qaydaları, «Sadələşdirilmiş vergi üzrə sabit məbləğin ödənilməsi haqqında qəbz» forması, «Daşınmaz əmlakın icarəsi ilə bağlı aparılmış notariat əməliyyatları barədə məlumat» forması, «Səhmlərinin və paylarının nəzarət zərfi dövlətə məxsus olan dövlət (büdcə) təşkilatları onlara dövlət büdcəsinin investisiya xərcləri hesabına ayrılmış vəsaitlər hesabına alınan və ya quraşdırılan aktivlər barədə məlumat» forması təsdiq edilib.

Bundan başqa, vergilər nazirinin əmri ilə Vergi Məcəlləsinə edilmiş dəyişikliklərdən irəli gələn məsələlərin həlli, vergi nəzarətinin səmərəliliyinin artırılması, təhlil bazasının genişləndirilməsi məqsədilə mövcud bəyannamələrə, hesabatlara, onların əlavələrinə və tərtib olunması qaydalarına dəyişiklik edilib, bir sıra bəyannamələrə yeni əlavələr təsdiq olunub. Əlavə dəyər vergisinin, mənfəət vergisinin, gəlir vergisinin, torpaq vergisinin, mədən vergisinin, yol vergisinin, sadələşdirilmiş verginin bəyannamələri, onların əlavələrinin, habelə ödəmə mənbəyində tutulan vergi və aksiz bəyannaməsinin formaları və tərtib edilmə qaydaları yeni redaksiyada təsdiq edilib.

«Qeydiyyata alınmayan qeyri-rezidentə ödənilmiş məbləğə hesablanmış ƏDV-nin bəyannaməsi», «Muzdlu işlə əlaqədar ödəmə mənbəyində tutulan vergi bəyannaməsi», «Xarici subpodratçılardan ödəmə mənbəyində tutulan verginin bəyannaməsi», «Dövlət rüsumunun tutulması haqqında hesabat», «Bina tikintisi fəaliyyəti ilə məşğul olan şəxslərin sadələşdirilmiş vergi bəyannaməsi», «Xüsusi notariusun gəlir vergisi bəyannaməsi», «Daşınmaz əmlak təqdim edən şəxslərdən notariuslar tərəfindən ödəmə mənbəyində tutulan verginin bəyannaməsi», «Uduşlardan (mükafatlardan) əldə edilən gəlirdən ödəmə mənbəyində tutulan verginin bəyannaməsi», «Pul vəsaitlərinin nağd çıxarılmasına görə sadələşdirilmiş verginin bəyannaməsi», «Azərbaycan Respublikasında istehsal edilən və qiymətləri tənzimlənən məhsulların ixracı zamanı məhsulların kontrakt (satış)



***Bəyannamə formalarının tərtib edilməsi qaydaları ilə Vergilər Nazirliyinin rəsmi internet səhifəsində tanış olmaq mümkündür***

qiyməti ilə (ixrac xərcləri çıxılmaqla) ölkədaxili topdansatış qiyməti arasındakı fərqdən dövlət büdcəsinə hesablanan yığım barədə Hesabat» və onların tərtib edilməsi qaydaları da qəbul olunub.

### Sadələşdirilmiş verginin bəyannaməsi

Bu bəyannamə ölkə ərazisində sadələşdirilmiş verginin ödəyicisi sayılan vergi ödəyiciləri tərəfindən tərtib edilir. Bəyannamə tərtib olunarkən qaralamalara və düzəlişlərə yol verilmir. Təqdim olunmuş bəyannamədə aparılan hesablamalardakı riyazi səhvlər vergi orqanı tərəfindən düzəldilir və kompüter proqramı vasitəsilə düzgün hesablanmış vergi məbləğləri birbaşa baza göstəricilərinə daxil edilir.

Bəyannamənin «Vergi ödəyicisi haqqında ümumi məlumatlar» adlanan 1 №-li bölməsində ödəyicinin bu bəyannamənin aid olduğu hesabat dövrü üçün fəaliyyəti ilə bağlı ümumi göstəricilər qeyd olunur.

Bəyannamənin 2-ci bölməsində Vergi Məcəlləsinin 220.1-ci, 220.1-1-ci və 220.9-cu maddələrinə əsasən verginin hesablanması, 3-cü - muzdlu işlə əlaqədar gəlir vergisinin hesablanması haqqında məlumat bölməsində isə vergi ödəyicisinin hesabat dövründə işçilərə hesabladığı gəlirlər və bu gəlirlərə görə hesablanmış verginin məbləğləri aylar üzrə bölgü ilə qeyd olunur.

«Sadələşdirilmiş verginin bəyannaməsi»nə 1№ -li Əlavə Vergi Məcəlləsinin 218-ci maddəsinə əsasən sadələşdirilmiş verginin ödəyicisi sayılan vergi ödəyiciləri tərəfindən yalnız vergitutma məqsədləri üzrə zəruri göstəricilər əks etdirilməklə tərtib edilir. «Sadələşdirilmiş verginin bəyannaməsi»nə 3№ -li Əlavə isə Vergi Məcəlləsinin 218-ci maddəsinə əsasən sadələşdirilmiş verginin ödəyicisi sayılan və 1-dən artıq təsərrüfat subyekti (obyekti) olan vergi ödəyiciləri tərəfindən yeni qaydalara əsasən təqdim edilir.

### Əlavə dəyər vergisinin bəyannaməsi

Vergi Məcəlləsinin 154-cü maddəsinə əsasən, ƏDV ödəyicisi sayılan vergi ödəyiciləri və qanunla təsdiq olunmuş hasilatın pay bölgüsü haqqında, əsas boru kəməri haqqında və digər bu qəbildən olan sazişlər və ya qanunlar çərçivəsində fəaliyyət göstərən xüsusi vergi rejimli vergi ödəyiciləri tərəfindən tərtib və təqdim edilir. Bəyannamə tərtib edilərkən hər xanada yalnız bir rəqəm və ya bir hərf əks etdirilməlidir. «Bəyannamə təqdim edildiyi vergi orqanının adı» adlı sətrin xanalarında böyük çap hərfləri ilə hər xanada bir hərf olmaqla vergi orqanının adı yazılmalıdır. «VÖEN» xanalarında vergi ödəyicisinin VÖEN-i, «Vergi ödəyicisinin tam adı» xanalarında böyük çap hərfləri ilə vergi ödəyicisinin tam adı yazılır. «Vergi ödəyicisinin qrupu» adlı sətirdə vergi ödəyicisinin fəaliyyəti üzrə vergi öhdəliyinin hansı normativ hüquqi sənədlə - Vergi Məcəlləsi və yaxud Hasilatın pay bölgüsü haqqında (HPBS), Əsas boru kəməri haqqında (ƏBKS) və digər bu qəbildən olan qanunlarla təsdiq olunmuş sazişlər və sənədlərlə müəyyən edilməsi barədə məlumat verilir. Bu məqsədlə sətrin adının aşağı hissəsində qeyd edildiyi kimi, sətirdəki 2 xanadan birində «X» işarəsi qoyulur. Vergi ödəyicisi eynilə həm Vergi Məcəlləsi çərçivəsində, həm də qanunla təsdiq olunmuş hasilatın pay bölgüsü haqqında, əsas boru kəməri haqqında və digər bu qəbildən olan sazişlər və ya qanunlar çərçivəsində fəaliyyət göstərirsə, bu halda 3-cü sətrin «Vergi ödəyicisinin qrupu» sətrində Vergi Məcəlləsi çərçivəsində fəaliyyət göstərən vergi ödəyiciləri üçün nəzərdə tutulmuş xanada «X» işarəsi göstərilir.

Vergi ödəyicisi yalnız qanunla təsdiq olunmuş hasilatın pay bölgüsü haqqında, əsas boru kəməri haqqında və digər bu qəbildən olan sazişlər və ya qanunlar çərçivəsində fəaliyyət göstərirsə, bu halda bəyannamənin 4, 5 və 6 №-li sətirlərinin xanaları doldurulmur. «Əsas fəaliyyət növü» adlı sətrin 7 xanalıq çərçivəsində ödəyicinin əsas fəaliyyət növünün statistik kodu, ondan sonra gələn çərçivədə isə həmin fəaliyyət növünün adı qeyd olunur. «Təqdim olunmuş əlavələrin vərəq sayı» adlı sətirdə 3 xanalıq çərçivədə bəyannamə ilə birlikdə təqdim olunan əlavələrin vərəqlərinin sayı qeyd edilir.

***Misal:** Vergi ödəyicisi təqdim etdiyi cari «Əlavə dəyər vergisinin bəyannaməsi»nin məlumatlarının açıqlamasını təmin etmək məqsədilə bəyannaməyə 1 №-li Əlavə üzrə 2 vərəq, 2 №-li Əlavə üzrə 3 vərəq, 3 №-li Əlavə üzrə 1 vərəq, 4 №-li Əlavə üzrə 1 vərəq, 5 №-li Əlavə üzrə 1 vərəq, 6 №-li Əlavə üzrə 1 vərəq, 7 №-li Əlavə üzrə 1 vərəq və 8 №-li Əlavə üzrə 1 vərəq, cəmi səkkiz Əlavə üzrə 11 vərəq qoşma etmişdir.*

# Vergi Məcəlləsinə əlavə edilmiş yeni anlayışlar

«Azərbaycan Respublikasının Vergi Məcəlləsində dəyişikliklər edilməsi haqqında» 16 dekabr 2016-cı il tarixli Qanunla Vergi Məcəlləsinin anlayışlardan bəhs edən 13-cü maddəsinə bir sıra yeni anlayışlar əlavə edilib.

Vergilər Nazirliyinin Tədris Mərkəzinin elmi-metodologiya kafedrasının müdiri Malik Əkbərov bu anlayışların şərhi ilə bağlı diqqəti «gəlir» anlayışına yönəldərək demişdir: «İndiyə qədər bu anlayışın hüquqi sərhədlərinin olmaması «gəlir» dedikdə, mal (iş, xidmət) təqdim edilməsi ilə bağlı əldə olunan (əldə edilməli olan) ümumi gəlir, yoxsa bu məbləğdən gəlirdən çıxılmasına yol verilən xərclər çıxıldıqdan sonra yerdə qalan fərqin başa düşülməsi yönündə suallar doğururdu. Məcəlləyə yeni edilmiş dəyişikliklə birmənalı şəkildə müəyyən edilir ki, gəlir - malların (işlərin və xidmətlərin) təqdim edilməsi ilə bağlı əməliyyatların ümumi dəyəri, habelə satışdankənar gəlir deməkdir».

Məcəlləyə daxil edilmiş «Vergi öhdəliyinin əvvəlcədən müəyyənləşdirilməsi barədə qərar» anlayışı vergi ödəyicilərinin hüquqlarının genişləndirilməsinə xidmət edən mexanizmlə bağlıdır. M.Əkbərovun sözlərinə görə, adı çəkilən qərar bir sıra Avropa ölkələrinin, habelə ABŞ, Kanada və Yaponiyanın vergi qanunvericiliyində tətbiq edilir: «Hər hansı vergi ödəyicisinin vergi öhdəliyinin müəyyən edilməsində səhvə yol verməsi istisna deyil. Bu isə xüsusilə iri həcmli əməliyyatlar zamanı vergi ödəyicisinin böyük vergi riskinin yaranması ilə nəticələnir. Vergi öhdəliyinin əvvəlcədən müəyyənləşdirilməsi barədə qərar isə bu riski tam aradan qaldırır. Dəyəri 10 milyon manatdan artıq olan, gələcəkdə həyata keçiriləcək əməliyyat üçün yaranacaq vergi öhdəliyini və digər hüquqi nəticələri barədə vergi ödəyicisinin istəyi ilə vergi orqanı qərar qəbul edir və bu zaman yarana biləcək qanun pozuntusuna görə vergi ödəyicisi heç bir məsuliyyət daşımır».

Vergi ödəyicilərinin mənafeyinə xidmət edən daha bir prosedur - «könüllü vergi açıqlaması» anlayışı ilə müəyyənləşdirilir: «Məlumdur ki, səyyar vergi yoxlaması zamanı qanun pozuntusunun aşkara çıxarılmaması vergi ödəyicisinin həmin pozuntuya görə məsuliyyətə cəlb edilməyəcəyinə heç bir zəmanət vermir. Çünki vergi orqanı hesabat dövrü bitdikdən sonra 3 il ərzində vergiləri hesablamaq və hesablanmış vergiləri yenidən hesablamaq, o cümlədən əldə etdiyi mənbəyi bəlli olan hər hansı məlumat əsasında vergi ödəyicisinin gəlirlərinin və ya vergitutma obyektinin gizlədilməsinin (azaldılmasının) əlamətləri müəyyən edildikdə növbədənkənar vergi yoxlaması keçirmək hüququna malikdir. Bunun nəticəsində isə vergi ödəyicisi büdcədən yayındırılmış vergilərlə bərabər, maliyyə sanksiyaları və faizləri də ödəmək məcburiyyətində qalır. Könüllü vergi açıqlaması isə bu hallarla üzləşməmək üçün vergi ödəyicisinə verilən bir imkandır».

M.Əkbərovun sözlərinə görə, kənd təsərrüfatı məhsullarının istehsalı və satışı anlayışlarının Vergi Məcəlləsində öz əksini tapmaması qanunvericiliyin tətbiqi ilə bağlı müəyyən sualların yaranmasına səbəb olurdu: «Qanunvericiliyə edilmiş son dəyişikliyə əsasən,

**Vergi ödəyicilərinin mənafeyinə xidmət edən daha bir prosedur - «könüllü vergi açıqlaması» anlayışı ilə müəyyənləşdirilir**

Vergi Məcəlləsinə «kənd təsərrüfatı məhsullarının istehsalı» və «kənd təsərrüfatı məhsullarının satışı» anlayışları daxil edilmiş, beləliklə, kənd təsərrüfatı məhsulları ilə ondan hazırlanmış emal məhsullarını bir-birindən fərqləndirməyə imkan verən dəqiq meyarlar müəyyən edilmişdir».

Kiçik və orta sahibkarlığı stimullaşdırmaq, pərakəndə ticarətdə rəqabət mühitini təmin etmək və vergi yükünü optimallaşdırmaq məqsədilə pərakəndə ticarət fəaliyyəti ilə məşğul olan sahibkarlar tərəfindən Azərbaycan Respublikasında istehsal edilmiş kənd təsərrüfatı məhsullarının satışı zamanı ƏDV-nin həmin məhsulların satış qiyməti ilə onların alış qiyməti arasındakı fərqdən, yəni ticarət əlavəsindən hesablanması ilə bağlı müddəalar və «ticarət əlavəsi» anlayışının tərifinin verilməsi vergitutma prosesində konkretlik yaradır: «Yeni anlayışlara görə, topdansatış malların alıcıya onun sahibkarlıq fəaliyyəti məqsədləri üçün və qaimə-faktura tətbiq edilməklə həyata keçirdiyi ticarət fəaliyyətidir. Pərakəndə satış isə malların alıcıya son istehlak məqsədilə və yalnız qəbz və ya nəzarət-kassa aparatının çeki (sahibkarlıq fəaliyyətini həyata keçirən hüquqi və fiziki şəxslərə onların tələbilə qaimə-faktura və ya elektron-qaimə faktura və ya elektron vergi hesab-fakturası) təqdim edilməklə satışının həyata keçirildiyi ticarət fəaliyyətidir. Bu dəyişikliklər vergi ödəyiciləri ilə vergi orqanları arasında yarana biləcək fikir ayrılıqlarının qarşısının alınmasına və onların maliyyə sanksiyalarına məruz qalmamasına şərait yaradacaqdır».

Məcəlləyə daxil edilmiş daha bir mühüm anlayış «transfer qiyməti» anlayışıdır. M.Əkbərovun sözlərinə görə, dəyişikliyə zərurət ondan irəli gəlmişdir ki, Vergi Məcəlləsinin 14-cü maddəsinin mövcud redaksiyası rezident vergi ödəyicisinin ölkə hüdudlarından kənarda təsis edilmiş vergi ödəyiciləri ilə apardıqları əməliyyatlarda gəlir və xərclərinin düzgün bölüşdürülməsinə nəzarət etməyə imkan vermirdi. Belə halların qarşısının alınması məqsədilə ölkə hüdudlarından kənarda, o cümlədən vergi sığınacağı hesab edilən dövlətlərdə və ya ərazilərdə (offşorlarda) təsis edilmiş şəxslərlə həyata keçirilən əməliyyatlar üzrə əldə olunan gəlirlərin transfer qiymətləri tətbiq edilməklə vergiyə cəlb olunması üçün Məcəlləyə müvafiq maddələr daxil edilmişdir».

M.Əkbərov «maliyyə institutu» və «maliyyə institutlarında vergi monitorinqi» anlayışları ilə bağlı qeyd etmişdir ki, vergi orqanı vergi və maliyyə məlumatlarının mübadiləsini nəzərdə tutan Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələrin tələblərinə əməl olunmasını təmin etmək məqsədilə maliyyə institutlarında vergi monitorinqi apara bilər: «Məcəllənin 13-cü maddəsinə bu amil nəzərə alınaraq həmin anlayışlar daxil edilmişdir. Bəzi vergi ödəyiciləri müxtəlif sxemlər tətbiq etməklə faktiki iqtisadi göstəriciləri dəyişmədən vergilərin daha az məbləğdə ödənilməsinə nail olurlar. Mahiyyəti üzrə əmək münasibətlərinin xidmət müqavilələri ilə rəsmiləşdirilməsi, çoxpilləli müqavilələr bağlamaqla xərclərin bir vergi ödəyicisindən digərinə ötürülməsi belə sxemlərə nümunə ola bilər. Vergi qanunvericiliyinə daxil edilmiş müddəalar beynəlxalq təcrübə nəzərə alınmaqla belə vergi ödəyicilərinin vergitutma obyektlərini şəffaf şəkildə vergiyə cəlb etmək və vergitutma bazasının gizlədilməsinin qarşısını almaq üçün hüquqlardan sui-istifadənin qarşısını almaq məqsədi daşıyır. Bunlarla yanaşı, Vergi Məcəlləsində vergidən yayınma sxeminin tətbiqi halları aşkar edildikdə vergi orqanlarına faktiki iqtisadi mahiyyət üzrə qanunla müəyyən edilmiş qaydada vergiləri hesablamaq hüququnun verilməsini özündə əks etdirən müddəalar, o cümlədən «vergi üstünlüyü», «vergidən yayınma sxemi» və «vergi tutulan əməliyyatın faktiki iqtisadi göstəricisi» kimi anlayışların da tərifi verilmişdir.

**Fəxriyyə İKRAMQIZI**

# İslahatlar sahibkarlığın daha da sağlamlaşmasına zəmin yaradır

**Yanvarın 21-də «Vergi Məcəlləsində dəyişikliklər edilməsi haqqında» Qanunun, vergi inzibatçılığında baş vermiş dəyişikliklərin mahiyyətinin sahibkarlara və iş adamlarına bilavasitə çatdırılması məqsədilə Sumqayıt şəhərində 2 saylı Ərazi Vergilər Departamentinin əhatə dairəsinə daxil olan Sumqayıt və Xırdalan şəhərləri, həmçinin Siyəzən və Xızı rayonlarında fəaliyyət göstərən 500-ə yaxın sahibkarın iştirakı ilə Vergilər Nazirliyinin vəzifəli şəxslərinin görüşü keçirilib.**



Tədbirdə çıxış edən Sumqayıt Şəhər İcra Hakimiyyəti başçısının müavini Sahib Quliyev ölkəmizdə sahibkarlıq sahəsində yeni münasibətlərin formalaşdığını, sahibkarlara dövlət dəstəyi tədbirlərinin artırıldığını, Vergilər Nazirliyinin təşkil etdiyi bu tədbirin məlumatlandırılma baxımından mühüm əhəmiyyət kəsb etdiyini bildirdi. Azərbaycan iqtisadiyyatının inkişafında regionların, o cümlədən Sumqayıt şəhərinin xüsusi payının getdikcə artdığını deyən S.Quliyev son 10 ildə bu şəhərdə məhsul istehsalının həcminin 300 milyon manatdan 1 milyard 1179 milyon manata çatdığını vurğuladı.

Görüşdə iştirak edən vergilər nazirinin müavini, 3-cü dərəcəli dövlət vergi xidməti müşaviri Sahib Ələkbərov Vergi Məcəlləsinə edilmiş dəyişikliklərin əsas məqsədinin ölkədə sahibkarlığın və investisiyaların təşviqi, xüsusilə də kiçik və orta biznesin inkişafına daha əlverişli şəraitin yaradılması, vergi yükünün azaldılması, sahibkarların hüquqlarının daha etibarlı qorunmasının olduğunu bildirdi. Qeyd etdi ki, qanunda vergi orqanları və sahibkarlıq subyektləri arasında qarşılıqlı etimadın səviyyəsinin yüksəldilməsi, nağdsız əməliyyatların həcminin artırılması, vergi mühitinin cəlbediciliyinin artırılması yolu ilə iqtisadiyyata investisiya qoyuluşlarının təşviq edilməsi, dürüst və şəffaf vergi uçotunun qurulması da öz əksini tapıb. Nazir müavini vurğuladı ki, ölkə başçısının təşəbbüsü ilə qəbul olunmuş «Vergi ödəyicilərinin 2017-ci ilin yanvarın 1-nə mövcud olan vergi borclarının tənzimlənməsi haqqında» Qanun sahibkarların maliyyə vəziyyətinin sağlamlaşdırılmasına, onların sərəncamında əlavə vəsaitlərin qalmasına, sahibkarlığın inkişafının stimullaşdırılmasına və daha əlverişli biznes mühitinin formalaşdırılmasına xidmət edir. Sahib Ələkbərov sahibkarları bu qanunun yaratdığı imkanlardan maksimum yararlanmağa çağıraraq, yaranmış borclar üzrə hesablanmış faizlər və Vergi Məcəlləsinin 58.7-ci maddəsinə əsasən tətbiq edilmiş maliyyə sanksiyalarının artıq tam həcmdə silindiyini, digər maliyyə sanksiyaları üzrə borcların isə müəyyən şərtlər daxilində silinəcəyini bildirdi.

Nazirliyin Vergi siyasəti və strateji araşdırmalar departamentinin baş direktoru Samirə Musayeva bildirdi ki, Vergi Məcəlləsində vergi güzəştləri və azadolmalarla bağlı dəyişikliklər vergi ödəyicilərinin vergi yükünün azaldılmasına, onların dövriyyə vəsaitlərindən səmərəli istifadə etmələrinə şərait yaradacaq, sahibkarlığın inkişafına dəstək verəcək. Qeyd olundu ki, sahibkarların vergi yükünün azaldılması ilə yanaşı, onların dövriyyə vəsaitlərinə qənaət edilməsi, habelə ixracı stimullaşdırmaq məqsədilə ixrac fəaliyyəti ilə məşğul olan şəxslərin apardıqları əməliyyatlardan yaranan ƏDV üzrə artıq ödənilmiş vergilərin qaytarılması müddətləri də azaldılıb.

S.Musayeva icbari tibbi sığorta və səhiyyə xidmətləri, buğdanın idxalı və satışı, buğda unu və çörəyin istehsalı və satışı, quş ətinin satışı, banklar tərəfindən fiziki şəxslərin əmanəti üzrə ödənilən illik faiz gəlirlərinə tətbiq edilən vergi güzəştləri, sabit verginin tətbiqi, uçotun sadələşdirilməsi və digər mühüm məsələlər barədə də məlumat verdi. Bundan başqa, e-qaiməfakturaların tətbiqi, elektron ticarətin vergiyə cəlb olunması ilə bağlı qanunvericiliyə edilmiş əlavə və dəyişikliklər, «Nağdsız hesablaşmalar haqqında» Qanunun tələblərindən irəli gələn məsələlər də ətraflı şərh olundu.

Vergilər nazirinin müşaviri, Vergi ödəyicilərinə xidmət və şəffaf vergi partnyorluğu departamentinin baş direktoru Ələkbər Məmmədov vergi ödəyiciləri ilə partnyorluq münasibətlərinin dərinləşdirilməsi, intizamlı vergi ödəyiciləri üçün «Yaşıl dəhliz» prinsipinə əsaslanan şəffaf vergi xidmətlərinin göstərilməsi, bu prinsip əsasında həyata keçirilən fərdi xidmətlər, uçot sisteminin şəffaflaşdırılması ilə bağlı məsələlər barədə məlumat verdi. Bildirildi ki, əsas hədəf vergi orqanı ilə vergi ödəyiciləri arasında münasibətlərin tamamilə şəffaflaşdırılmasıdır. Bu sistemin tətbiqi sayəsində vergi ödəyiciləri ilə daim əlaqədə olan şəxslər vergi xidməti əməkdaşları olacaq. Sahibkarların təsnifatına uyğun olaraq kiçik, orta və iri sahibkarlara yanaşma fərqləndiriləcək. 2017-ci ildən etibarən həm uçot, həm də xidmətlərin göstərilməsi sahəsində yeni layihələr həyata keçiriləcək, sahibkarların qeydiyyatı prosesi daha da sadələşdiriləcək, VÖEN-in cəmi 1 gün ərzində verilməsi təmin olunacaq. Bu, Azərbaycanın beynəlxalq reytinqlərdə «biznesə başlama» indeksi üzrə mövqeyinin daha da yaxşılaşmasına səbəb olacaq. Kiçik və orta sahibkarlara ünvanlı və keyfiyyətli, fasiləsiz xidmətin göstərilməsi işi təkmilləşdiriləcək, xidmət çeşidinin mahiyyəti dəyişəcək. Vergi ödəyicilərinin bütün zəngləri qeydə alınacaq, danışıqları yazılacaq.

Sonra tədbirdə iştirak edən sahibkarların vergi qanunvericiliyində aparılmış dəyişikliklərlə bağlı çoxsaylı sualları cavablandırıldı. Vergi risklərinin təhlili və nəzarəti departamentinin baş direktoru Natiq Şirinov ayrı-ayrı sahələr üzrə vergi ödəyicilərinin rastlaşdıqları konkret suallara aydınlıq gətirdi.

Sumqayıtlı sahibkar, «Cökəli» firmasının rəhbəri Hümbət Quliyev vergi sistemində aparılan geniş islahatları yüksək qiymətləndirərək dedi: «Hippokratın belə bir sözü var: xəstə həkimin yanından çıxandan sonra özünü yaxşı hiss edirsə, deməli, o, yaxşı həkimdir. Sahib müəllim, siz burada o qədər ətraflı çıxış etdiniz ki, mən iş adamı kimi özümü çox sağlam hiss etməyə başladım. Hazırda vergi sahəsində əsaslı sağlamlaşma prosesi gedir: «Bu həm də iqtisadiyyatın aparıcı qüvvəsi olan sahibkarlığın sağlamlaşmasına səbəb olur. Bu gün vergi orqanları şəffaf işləyir, vergi yükü aşağı salınır, sahibkarların fəaliyyəti üçün bütün imkanlar yaradılır. Biz sahibkarlar da bundan yararlanmaq, daha fəal olmaq istəyirik. Səhiyyə sahəsində çalışan bir sahibkar kimi aparılan islahatlardan qürur duyuram, Vergilər Nazirliyinin sahibkarlara verdiyi bu dəyər, göstərdiyi yüksək xidmətlər bizi ruhlandırır». «Neft-Qaz Avtomat Elm-İstehsalat Birliyi» MMC-nin mühasibi Əli Əmirov dövlət başçısının sahibkarlara göstərdiyi diqqət və qayğıya görə minnətdarlığını bildirdi, vergi ödəyicilərinin mənafeyinin qorunmasına yönəlmiş tədbirləri yüksək qiymətləndirdi. Vergi borclarının silinməsini sahibkarlıq sektoruna növbəti dəstəyin nümunəsi hesab etdiyini diqqətə çatdıran sahibkar fəaliyyət göstərdiyi müəssisənin vergi borcu üzrə faizlərə hesablanmış 1,6 milyon manat borcunun silindiyini bildirdi. MMC-yə 265 min manat tətbiq edilmiş maliyyə sanksiyasının isə yaxın günlərdə ödəniləcəyini, beləliklə, «vergi amnistisiyası» nəticəsində 1,9 milyon manata yaxın vəsaitin dövlət tərəfindən ona qaytarılacağına görə minnətdarlığını ifadə etdi.

Azərbaycanda fəaliyyət göstərən əcnəbi iş adamı, «İnterling» MMC-nin nümayəndəsi Franklin Svatski ölkəmizdə əlverişli biznes və vergi mühitinin yaradıldığını söylədi. O, respublikamızda vergi yükünün biznes üçün səmərəliliyini, biznesin qeydiyyatı sahəsində son illər görülmüş səmərəli işlərin müsbət nəticələrə səbəb olduğunu, Azərbaycanın «Doing Business 2017» hesabatında vergi və biznesə başlama göstəriciləri üzrə ən yaxşı nəticələr əldə edən ölkələr sırasında yer aldığını vurğuladı.

«Vergi dostları» şəbəkəsinin üzvü, Siyəzəndəki kənd orta məktəbinin müəlliməsi Pərvin Ağasiyeva çıxış edərək vergi qanunvericiliyində aparılmış son dəyişikliklərin vergi ödəyicilərinə çatdırılması, məktəblərdə vergi mədəniyyətinin təbliği istiqamətində fəal iş aparacaqlarını bildirdi.

Sahibkar Valeh Məmmədov, fiziki şəxs Fariz Əsədov və digərləri vergi güzəştlərinin əhatə dairəsinin genişləndirilməsinə və sadələşdirilmiş vergi ödəyicilərinə göstərilən diqqət və qayğıya görə minnətdarlığını ifadə edərək vergi sistemində aparılan islahatların sahibkarlığın inkişafına mühüm töhfə verəcəyinə əmin olduqlarını diqqətə çatdırdılar.

Çıxış edən digər sahibkarlar vergi orqanının rəhbər vəzifəli şəxslərinin vergi islahatları ilə bağlı ətraflı izahatları nəticəsində geniş məlumat əldə etdiklərini, bu cür tədbirlərin vergi orqanı ilə vergi ödəyiciləri arasında səmərəli əməkdaşlığın daha da möhkəmlənməsində mühüm rol oynayacağına inandıqlarını bildirdilər.

**ELBRUS**





Ölkəmizdə fəaliyyət göstərən əcnəbi iş adamı, «İnterling» MMC-nin nümayəndəsi Franklin Svatski Azərbaycanda əlverişli biznes və vergi mühitinin yaradıldığını deyir

# Sahibkarlar nə qədər çox qazanarsa, bundan Azərbaycan qazanar

**2017-ci İLİN YANVAR AYININ 1-dən QÜVVƏYƏ MİNMİŞ «VERGİ MƏCƏLLƏSİNDƏ DƏYİŞİKLİKLƏR EDİLMƏSİ HAQQINDA» VƏ «VERGİ ÖDƏYİCİLƏRİNİN 2017-ci İLİN 1 YANVAR TARİXİNƏ MÖVCUD OLAN VERGİ BORCLARININ TƏNZİMLƏNMƏSİ HAQQINDA» QANUNLARIN REGİONLARDA ÇALIŞAN SAHİBKARLARA ƏTRAFLI ŞƏKİLDƏ ÇATDIRILMASI, VERGİ ÖDƏYİCİLƏRİNİN ÜZƏRİNƏ DÜŞƏN ÖHDƏLİKLƏRİN MAHİYYƏTİNİN İZAH EDİLMƏSİ MƏQSƏDİLƏ VERGİLƏR NAZİRLİYİ TƏRƏFİNDƏN BÖLGƏLƏRDƏ SİLSİLƏ GÖRÜŞLƏR KEÇİRİLİR.**

Yanvarın 16-dan 19-dək Quba şəhərində 3 saylı Ərazi Vergilər İdarəsinin əhatə dairəsinə düşən Xaçmaz, Quba, Qusar və Şabran, Qəbələ şəhərində 10 saylı Ərazi Vergilər İdarəsinin əhatə dairəsinə düşən Qəbələ, İsmayıllı və Oğuz, Zaqatala şəhərində 13 saylı Ərazi Vergilər İdarəsinin əhatə dairəsinə düşən Qax, Balakən, Zaqatala və 4 saylı Ərazi Vergilər İdarəsinin əhatə dairəsinə düşən Ağsu, Qobustan və Şamaxıda keçirilən görüşlərdə təxminən 2 minə yaxın sahibkar iştirak edib.

Sahibkarlarla görüşlərdə çıxış edən vergilər nazirinin müavini, 3-cü dərəcəli dövlət vergi xidməti müşaviri Sahib Ələkbərov bildirib ki, dünyada mürəkkəb qlobal iqtisadi proseslər gedir, iqtisadi artım aşağı düşür, dövlət büdcəsinin gəlirləri azalır. Bu azalmaların təsirini zəiflətmək üçün bir çox ölkələr vergiləri artırır. Təbii ki, dünyada baş verən bu proseslər Azərbaycana da öz təsirini göstərir. Buna baxmayaraq ölkəmizin dövlət büdcəsində sosial layihələrə, müdafiə sahəsinə ayrılan vəsaitlərin həcmi azalmayıb, əksinə, artırılıb. Prezident İlham Əliyev birmənalı şəkildə bəyan edib ki, vətəndaşların sosial vəziyyəti daha da yaxşılaşdırılmalıdır, büdcədə sosial xərclər prioritet olmalıdır. Dövlət başçısı vergiləri artırmadan vergitutma bazasının genişləndirilməsini, sahibkarlara hərtərəfli diqqət və qayğı göstərilməsini tapşırıb. Əlverişli biznes mühitinin yaradılması, qeyri-neft sektorunun inkişaf etdirilməsi, büdcədə vergi və gömrük daxilolmalarının həcminin artırılması əsas hədəflər kimi müəyyən olunub. Buna görə də ölkəmizdə sahibkarların sayı və gəlirləri artmalı, yeni istehsal, xidmət sahələri yaranmalıdır. Bunun üçün daha əlverişli vergi mühiti təmin edilməli, vergi ödəyicilərinin fəaliyyəti genişlənməlidir. Vergi Məcəlləsinə edilmiş dəyişikliklərin böyük bir qismi də məhz sahibkarların geniş fəaliyyəti üçün daha əlverişli şərait yaradılmasına xidmət edir.

Vergi orqanları tərəfindən aparılan kameral və səyyar vergi yoxlamalarının dayandırılması nəticəsində 2016-cı ildə 2015-ci ilə nisbətən vergi yoxlamalarının sayı 2 dəfədən çox azalıb. Aparılan islahatlar nəticəsində vergi orqanlarının sahibkarlara yanaşma tərzi də tamamilə dəyişib, vergi qanunvericiliyinə və vergi öhdəliklərinə nəzarət, şəffaf partnyorluq idarələri yaradılıb. Vergi ödəyicilərinə xidmətin daha yaxşı təşkili məqsədilə struktur dəyişiklikləri aparılıb, daha səmərəli, çevik, ədalətli və şəffaf vergi inzibatçılığının formalaşdırılmasını təmin edən dinamik struktur formalaşdırılıb. İri sahibkarlarla əlaqələri tənzimləmək üçün Milli gəlirlər departamenti yaradılıb ki, bu da iri vergi ödəyiciləri üzrə işlərin daha dərin iqtisadi təhlillərə əsaslanmaqla təşkil edilməsinə səbəb olacaq. Orta sahibkarlıq subyektləri üçün Lokal gəlirlər və kiçik sahibkarlıq subyektləri üçün yerli strukturlar fəaliyyət göstərir. Məqsəd sahibkarlara daha ünvanlı xidmətlərin göstərilməsini təmin etməkdir.

Sahib Ələkbərov dövlət başçısının təşəbbüsü ilə qəbul edilmiş «Vergi ödəyicilərinin 2017-ci ilin 1 yanvar tarixinə mövcud olan vergi borclarının tənzimlənməsi haqqında» Qanunun əhəmiyyətinə toxunaraq bildirib ki, yaranmış borclar üzrə hesablanmış faizlər və tətbiq edilmiş maliyyə sanksiyalarının tam silinməsi, digər maliyyə sanksiyaları üzrə isə müəyyən edilmiş şərtlər daxilində silinmələri üçün sahibkarlara şans verilib. Yanvarın 16-na qədər 96 mindən çox vergi ödəyicisinin 727 milyon manat həcmində vergi borcu silinib, daha 26.700 min ödəyiciyə isə 357 milyon manat həcmində vergi borcunun müəyyən şərtlərlə silinməsi üçün imkan verilib.

### Vergi Məcəlləsinə dəyişikliklər sahibkarların maraqlarına xidmət edir

Regionlarda fəaliyyət göstərən sahibkarlarla görüşlərdə Vergilər Nazirliyinin Vergi siyasəti və strateji araşdırmalar departamentinin baş direktor müavinləri Şamil Ərəbov və Nicat İmanov, departamentin şöbə rəhbəri Əvəz Quliyev vergi qanunvericiliyində edilmiş dəyişikliklər barədə sahibkarlara məlumat veriblər. Bildirilib ki, Vergi Məcəlləsinə dəyişikliklər bir neçə mühüm istiqamətləri əhatə edir. Ən mühüm istiqamətlərdən biri vergi yükünün azaldılması və pərakəndə ticarət fəaliyyətində ƏDV-nin ticarət əlavəsindən hesablanması ilə bağlıdır. Qeyd olunub ki, kiçik və orta sahibkarlığı stimullaşdırmaq, pərakəndə ticarətdə rəqabət mühitini təmin etmək və vergi yükünü optimallaşdırmaq məqsədilə pərakəndə ticarət fəaliyyəti ilə məşğul olan sahibkarlar tərəfindən Azərbaycanda istehsal edilmiş kənd təsərrüfatı məhsullarının satışı zamanı ƏDV həmin məhsulların satış qiyməti ilə onların alış qiyməti arasındakı fərqdən, yəni ticarət əlavəsindən hesablanır. Digər bir güzəşt ödəmə qabiliyyətini itirmiş bankların sağlamlaşdırma tədbirləri çərçivəsində qeyri-işlək aktivlərinin 2017-ci il yanvarın 1-dən 3 il müddətinə ƏDV-dən azad edilməsidir. Eləcə də icbari tibbi sığorta və səhiyyə xidmətləri göstərən qurumların gəlirləri müddətsiz olaraq mənfəət vergisindən, buğdanın idxalı və satışı, buğda ununun və çörəyin istehsalı və satışı, quş ətinin satışı 3 il müddətinə ƏDV-dən azad olunub. Banklar tərəfindən fiziki şəxslərin əmanəti üzrə ödənilən illik faiz gəlirlərinin 7 ilə qədər gəlir vergisindən azad edilməsi də bu güzəştlərə aiddir.

**Sabit vergi ödəyiciləri üçün VÖEN və bəyannamə təqdim etmək də tələb olunmayacaq, sadəcə, qəbz almaq kifayət edəcək**

Davamı 5-ci səhifədə

# Sahibkarlar nə qədər çox qazanarsa, bundan Azərbaycan qazanar

**Əvvəli 4-cü səhifədə**

Sahibkarların vergi yükünün azaldılması ilə yanaşı, onların dövriyyə vəsaitlərinə qənaət edilməsi, habelə ixracı stimullaşdırmaq məqsədilə ixrac fəaliyyəti ilə məşğul olan şəxslərin apardıqları əməliyyatlardan yaranan ƏDV üzrə artıq ödənilmiş vergilərin qaytarılması müddəti 45 gündən 20 günə endirilib. ƏDV tutulan əməliyyatlar aparan digər şəxslər üzrə yaranmış artıq ödəmələr isə digər vergi öhdəlikləri ilə 3 ay müddətində əvəzləndikdən sonra qalan məbləğ 20 gün müddətində qaytarılacaq.

Diqqətə çatdırılıb ki, yeniliklərdən biri ticarət festivalları, Novruz şənlikləri zamanı satılan mallar, göstərilən xidmətlər üçün tutulan ƏDV-nin qaytarılması ilə bağlıdır. Həmin tədbirlərin iştirakçılarından tutulan vergi qısa müddətdə onlara geri qaytarılacaq ki, bu da vergi güzəştlərinin bir növüdür.

Bildirilib ki, cari il yanvarın 1-dən fiziki şəxslərin vergi öhdəliklərinin aylıq sabit vergi şəklində müəyyən edilməsi nəzərdə tutulub: toylarda, şənliklərdə və digər tədbirlərdə aparıcı, çalğıçı, rəqqas, aşıq, məzhəkəçi, fərdi fotoqraf, audio-video operatoru kimi xidmətlər göstərən şəxslər, çəkməçilər, pinəçilər, saat, televizor, soyuducu və digər məişət cihazlarının təmiri ilə məşğul olanlar, habelə fərdi yaşayış evlərində və mənzillərin ev qulluqçuları, xəstələrə, qocalara və uşaqlara qulluq edənlər, dayələr, fərdi sürücülük edənlər, ev təsərrüfatında təmizlik aparanlar, bağban, aşpaz, gözətçi və nəqqaşlıq emalatxanaları kimi sahələrdə çalışanlar aylıq sabit vergi ödəyəcəklər. Bu vergilər Bakı, Sumqayıt və regionlar üzrə əmsallara uyğun hesablanacaq. Sabit vergi ödəyiciləri üçün bəyannamə təqdim etmək tələb olunmayacaq, sadəcə, qəbz almaq kifayət edəcək.

Görüşlərdə sahibkarlara kənd təsərrüfatı məhsullarının istehsalı və emalı üzrə sərhədlərin müəyyən edilməsi barədə də məlumat verilib. Bildirilib ki, kənd təsərrüfatı məhsullarının istehsalçıları 1999-cu ildən torpaq vergisi istisna olmaqla digər vergilərin ödənilməsindən azad edilsə də, kənd təsərrüfatı məhsullarının istehsalı ilə məşğul olan bəzi şəxslər bu güzəştlərdən sui-istifadə hallarına yol verirlər. Bu isə vergidən yayınma hallarına gətirib çıxarırdı. Həmin sahələrdə yaranan mübahisələri aradan qaldırmaq və vergi güzəştlərinin əhatə dairəsini dəqiq müəyyənləşdirmək məqsədilə istehsal və emal üzrə sərhədlər müəyyənləşdirilib. Beləliklə, heyvanların və quşların yetişdirilməsi, bəslənməsi, diri şəkildə olarkən onlardan məhsulların əldə edilməsi, bitkiçilik məhsullarının becərilməsi kənd təsərrüfatı məhsullarının istehsalı hesab olunur. Həmin növ məhsulların ilkin formasının dəyişdirilməsi, hər hansı kimyəvi təsirə məruz qalması və tərkibinin dəyişdirilməsi, konservləşdirilməsi fərdi təsərrüfat məhsulları istehsalına aid edilmir və ümumi qaydada vergiyə cəlb olunur.

Vergi Məcəlləsinə edilmiş mühüm dəyişikliklərdən biri də qaimə-fakturanın tətbiqidir. Hazırda topdansatış fəaliyyəti ilə məşğul olan şəxslər tərəfindən malların təqdim edilməsi zamanı əksər hallarda ciddi hesabat blanklarından istifadə olunmur, bu isə vergitutma obyektinin müəyyən edilməsində çətinliklər yaradır. Bu səbəbdən də topdan və pərakəndə ticarət fəaliyyəti ilə məşğul olan vergi ödəyicilərini fərqləndirən meyarlar nəzərdə tutulub: topdansatış malları alıcıya onun sahibkarlıq fəaliyyəti məqsədləri üçün və qaimə-faktura, e-qaimə faktura, elektron vergi hesab-fakturası tətbiq edilməklə həyata keçirilir. Pərakəndə satış isə malları alıcıya son istehlak məqsədilə və yalnız qəbz və ya nəzarət-kassa aparatının çeki təqdim olunmaqla satılacaq.

Elektron qaimə-fakturanın tətbiqi də əsas yeniliklərdəndir. Mal, iş və xidmətlər üzrə əməliyyatların rəsmiləşdirilməsi sahəsində mövcud vəziyyətin təhlili göstərir ki, qaimə-fakturaların kağız formasında tətbiqi uçotun lazımi səviyyədə təşkil olunmamasına və nəticə etibarilə vergidən yayınma hallarına şərait yaradır. Bunun qarşısını almaq məqsədilə e-qaimə-fakturanın təqdim edilməsi sahibkarlar qarşısında əsas tələb kimi qoyulub. Sahibkarlıq fəaliyyəti subyektləri öz fəaliyyətləri ilə bağlı bütün əməliyyatlarını qanunvericilikdə nəzərdə tutulmuş qaydada qaimə-faktura, elektron qaimə-faktura və ya e-VHF ilə rəsmiləşdirməlidirlər. Elektron qaimə-faktura və ya elektron vergi hesab-fakturası olmadıqda sahibkarlar belə hala birinci dəfə yol verdikdə alınmış malların 10 faizi, ikinci dəfə yol verdikdə 20 faizi, üç və daha çox dəfə yol verdikdə isə 40 faizi miqdarında maliyyə sanksiyası ilə üzləşəcək.

Mallara, işlərə, xidmətlərə görə e-qaimənin təqdim edilməsi ƏDV ödəyiciləri, 6 və 8 faiz dərəcəsi ilə sadələşdirilmiş vergi ödəyən ticarət və ya ictimai iaşə fəaliyyəti ilə məşğul olan şəxslər üçün 1 aprel 2017-ildən, bütün digər vergi ödəyiciləri üçün isə 1 yanvar 2018-ci ildən tətbiq ediləcək.

### Vergi ödəyicilərinin suallarına aydınlıq gətirilir

Görüşlərdə iştirak edən sahibkarlara qanunvericilikdə əksini tapmış yeni anlayışlar, yeni vergi bəyannamə və hesabat formaları barədə də məlumat və izahlar verilib. Quba, Qəbələ, Zaqatala və Şamaxı rayonlarında keçirilən görüşlərdə fəallıq göstərən sahibkarların çoxsaylı sualları onu göstərir ki, vergi ödəyiciləri qanunvericiliyə edilmiş dəyişiklikləri yaxından izləyir, vergi bəyannamələrinin yeni formalarının tərtibi, xidmətlərin göstərilməsi və digər məsələləri diqqətdə saxlayırlar.

Üzümçülüklə məşğul olan qəbələli sahibkar Əjdər Tağızadə vergi ödəyicilərinin maarifləndirilməsinin daha da fəallaşdırılmasını təklif edib, vergi orqanları ilə yanaşı, müvafiq iqtisadi qurumların da qanunvericiliyə edilən dəyişikliklər, qəbul olunan yeni proqram və layihələrin mahiyyəti barədə izahedici və praktiki məlumatların verilməsini məqsədəuyğun saydığını bildirib.








*Regionlarda fəaliyyət göstərən sahibkarlar müzakirələrdə fəal iştirak edirlər*

**İndiyədək vergi ödəyiciləri səyyar vergi yoxlamaları zamanı gəlirlərinin gizlədilməsi, yaxud azaldılması nəticəsində yayındırılmış vergi məbləğini dövlət büdcəsinə bərpa etməklə yanaşı, həm də yayındırılmış məbləğə 50 faiz miqdarında maliyyə sanksiyası ilə üzləşirdilər. Könüllü vergi açıqlaması isə vergi ödəyicilərini belə sanksiyalardan qoruyacaq**

Sahibkarın torpaq sahələrinin vergiyə cəlb edilməsi, üzüm yığımı zamanı muzdlu işə cəlb olunan vətəndaşlara əməyə görə ödənilən vəsaitlərin nağd verilməsinin mümkün olub-olmaması barədə sualları ətraflı şəkildə cavablandırılıb.

Torpaqların alğı-satqısı ilə bağlı suala cavab olaraq Şamil Ərəbov bildirib ki, torpaqların alğı-satqısı notarial qaydada həyata keçirilir və müəyyən olunmuş dərəcə ilə vergiyə cəlb olunur. Torpaqların şəxslər arasında dəyişdirilməsi isə vergiyə cəlb edilmir. Dövriyyəsi 200 min manatadək olan pərakəndə ticarət, iaşə və xidmət sahələrində fəaliyyət göstərən sahibkarlar istisna olmaqla, digər sahibkarların işə cəlb etdiyi insanlara əməkhaqqının ödənilməsi isə nağdsız formada olmalı, vətəndaş üçün bank kartı alınmalı və vəsait onun hesabına köçürülməlidir.

Sahibkarların ən çox maraqlandıqları suallardan biri nağdsız hesablaşmaların hansı qaydada həyata keçiriləcəyi, satdıqları və ya aldıqları mallara limitin tətbiq olunub-olunmayacağı barədə olub. Sahibkar Sərdar Əliyev nağd hesablaşmalara tətbiq olunan limitin kiçik sahibkarlar və ev-ailə təsərrüfatı ilə məşğul olan şəxslər üçün nəzərdə tutulub-tutulmamasına aydınlıq gətirilməsini xahiş edib. Ş.Ərəbov nağdsız hesablaşmaların tətbiq olunduğu sahələr, nağd əməliyyatlara qanunla icazə verilən limitin həddi, sahibkarlar arasında aparılan əməliyyatların bank hesablaşmaları və ya kartlar vasitəsilə həyata keçirilməsinin mexanizmləri ilə bağlı ətraflı və izahedici formada məlumat verib. Xüsusilə qeyd olunub ki, nağd əməliyyatların məhdudlaşdırılmasının vergi ödəyicisi olmayan vətəndaşlara heç bir aidiyyəti yoxdur.

Sahibkarlar Nadir Xəlilov və Fərrux İsmayılovun nağd əməliyyatlar zamanı 1% verginin tutulmasının hansı vergi ödəyicilərinə şamil olunacağı barədə sualına cavab olaraq bildirilib ki, banklardan hüquqi şəxslər və fərdi sahibkarlar tərəfindən pul vəsaitlərinin nağd qaydada bank hesablarından çıxarılmasına görə banklar və poçt rabitəsinin milli operatorları tərəfindən 1% dərəcəsi ilə sadələşdirilmiş vergi tutulacaq. Bu, yalnız sahibkarlıq fəaliyyəti ilə məşğul olan vergi ödəyicilərinə tətbiq olunacaq. Kənd təsərrüfatı məhsulları istehsalçıları olan fiziki şəxslər mallarını istədiyi həcmdə nağd qaydada sata bilərlər. Yeni qaydalar həm sadələşdirilmiş, həm də ƏDV ödəyiciləri olan şəxslər tərəfindən vəsaitlərini banklardan nağd qaydada çıxararkən tətbiq olunacaq.

Sahibkarların ən çox ünvanladığı suallardan biri hansısa təsərrüfat subyektindən sənədsiz mal alınması ilə bağlı olub. Zaqatalada fındıq emalı ilə məşğul olan fiziki şəxs İsmayıl Orucov və «F-mebel» MMC-nin rəhbəri Zeynal İbrahimovun suallarına aydınlıq gətirən Ş.Ərəbov bildirib ki, şadlıq evləri, bazarlar kənd təsərrüfatı mallarını fiziki şəxslərdən aldıqda onlardan sənəd tələb olunmayacaq. Amma digər sahibkarlıq subyektləri arasında malların təqdim edilməsi üçün sənədlər tələb olunur, əks halda, bu, vergi qanunvericiliyinin pozulması deməkdir.

Zaqatalada fəaliyyət göstərən sahibkar Qəmər Hüseynova vergi orqanını yaxın partnyor hesab etdiyini və xidmət mərkəzlərinə müraciət zamanı sahibkarlara hərtərəfli kömək göstərildiyini bildirib. Qeyd edib ki, ölkə rəhbərliyinin qayğısı sayəsində vergi borcu silinən sahibkarların 1574-ü Zaqatala rayonunda fəaliyyət göstərir. Qadın sahibkar «biz niyə vergi orqanlarından qorxmalıyıq? Avropa ölkələrində vergi ödəyiciləri özlərini necə hiss edir, bizdə də bu vərdiş formalaşmalıdır» deyərək, sahibkarlara öz işlərini düzgün qurmağı və vergiləri vaxtında ödəməyi tövsiyə edib.

Sahibkarların könüllü vergi açıqlaması sisteminin onlara hansı üstünlük verəcəyi barədə suallara da dolğun cavab verilib. Qeyd olunub ki, bu sistemin sahibkarlar üçün çox böyük üstünlükləri var. İndiyədək vergi ödəyiciləri səyyar vergi yoxlamaları zamanı gəlirlərinin gizlədilməsi, yaxud azaldılması nəticəsində yayındırılmış vergi məbləğini dövlət büdcəsinə bərpa etməklə yanaşı, həm də yayındırılmış məbləğə 50 faiz miqdarında maliyyə sanksiyası ilə üzləşirdilər. Könüllü vergi açıqlaması isə vergi ödəyicilərini belə sanksiyalardan qoruyacaq.

### Sahibkarlar da fəal olmalı, öz öhdəliklərini yerinə yetirməlidirlər

Regionda çalışan sahibkarları daha fəal olmağa, dövlət büdcəsinə ödənilməli olan vergiləri vaxtında və tam həcmdə ödəməyə dəvət edən vergilər nazirinin müavini S.Ələkbərov bildirib ki, vergi ödəyicilərinin hüquqlarının genişləndirilməsi və vergi yükünün azaldılması, vergi güzəştləri və vergidən azadolmalar dövlətin verdiyi ən böyük dəstəkdir.

Eyni zamanda, vergi mühitinin cəlbediciliyinin artırılması yolu ilə iqtisadiyyata investisiya qoyuluşlarının təşviqi üçün yaxşı imkanlar var və sahibkarlar bu fürsətdən istifadə etməyə çalışmalıdırlar. Nazir müavini vergi uçotunun təkmilləşdirilməsi və şəffaflaşdırılması, nağdsız əməliyyatların genişləndirilməsi və digər məsələlərə də toxunaraq sahibkarların dürüst və şəffaf uçot qurmalarının vacibliyini qeyd edərək bildirib ki, vergi siyasətinin əsas hədəflərindən biri sahibkarlarla vergi orqanı arasında birbaşa təmasın minimuma endirilməsi və əlaqələrin elektron qaydada həyata keçirilməsindən ibarətdir. Uçot sisteminin tam şəffaflaşdırılması məqsədilə elektron auditin geniş tətbiqi nəzərdə tutulub ki, bu da sahibkarın elektron formatda saxlanılan maliyyə məlumatlarına xüsusi proqram təminatı vasitəsilə birbaşa və ya məsafədən çıxış imkanı əldə etməsinə əlverişli şərait yaradacaqdır.

S. Ələkbərov sahibkarları nağdsız hesablaşmalarda daha fəal olmağa çağıraraq bildirib ki, artıq dünya ölkələri nağd hesablaşmalardan imtina edir, Avropanın bir çox ölkələrində kart olmadan mal və xidmət almaq mümkün deyil. MDB ölkələrində də bu proses son illər geniş vüsət alıb. Ölkəmiz bu proseslərdən kənarda qalmamalı, sahibkarlar apardıqları əməliyyatları əsasən nağdsız qaydada həyata keçirməlidirlər.

Regionlarda keçirilən görüşlərdə, həmçinin, vergi ödəyicilərinə sabit verginin tətbiqi, bank hesablarındakı pulun nağdlaşdırılması zamanı verginin tutulması, pərakəndə ticarət fəaliyyətində ƏDV-nin hesablanması, kameral vergi yoxlamalarının keçirilməsi qaydaları və digər məsələlərə də təfərrüatlı və aydın şəkildə aydınlıq gətirilib.

Yanvarın 23-də Lənkəran şəhərində 6 saylı Ərazi Vergilər İdarəsinin əhatə dairəsinə daxil olan Lənkəran, Astara, Lerik, Masallı, Yardımlı, Cəlilabad və Biləsuvar rayonlarından olan sahibkarlarla keçirilən növbəti görüşdə də məlumatlandırma tədbirləri davam etdirilib.

Görüşdə çıxış edən vergilər nazirinin müavini Sahib Ələkbərov Vergi Məcəlləsinə edilmiş dəyişikliklərin əsas məqsədinin ölkədə kiçik və orta biznesin inkişafına daha əlverişli şəraitin yaradılması, vergi yükünün azaldılması, vergi orqanları və sahibkarlıq subyektləri arasında qarşılıqlı etimadın səviyyəsinin yüksəldilməsi, dürüst və şəffaf vergi uçotunun qurulması olduğunu bildirib. Qeyd edilib ki, Vergilər Nazirliyi sahibkarların gəlirlərinin artmasında maraqlı tərəfdir, çünki sahibkar nə qədər çox qazanarsa, bundan Azərbaycan da qazanar.

Vergilər Nazirliyinin digər rəhbər vəzifəli şəxslərinin də çıxış etdiyi görüşdə Vergi Məcəlləsinə edilmiş əlavə və dəyişikliklərin, həmçinin «Nağdsız hesablaşmalar haqqında» Qanunun tələblərindən irəli gələn məsələlərin ətraflı izahı verilib, bu dəyişikliklərin mahiyyəti barədə vergi ödəyiciləri məlumatlandırılıb.

Tədbirdə iştirak edən vergi ödəyicilərinin sənəd dövriyyəsinin təmin edilməsi, pərakəndə ticarətdə uçot sisteminin qurulması, xüsusilə elektron qaimə-fakturaların tətbiqi, sabit vergi və könüllü vergi açıqlaması sistemlərinin mahiyyəti, elektron ödənişlər zamanı xidmət haqqının tutulması və nağd ödəmələrə qoyulmuş limitlər, POS-terminalların fəaliyyəti, faizlər və maliyyə sanksiyaları üzrə yaranmış vergi borclarının silinməsi prosedurları və s. kimi məsələlərin izahı ilə bağlı çoxsaylı sualları cavablandırılıb.

**Elbrus CƏFƏRLİ**

# Vətəndaş müraciətləri diqqət mərkəzindədir

2016-cı il ərzində vergi orqanlarına 87.438 müraciət daxil olub ki, bu da əvvəlki ilin müvafiq dövrü ilə müqayisədə 16,8% azdır. Müraciətlərdən 95,7%-i ərizə, 4,1%-i şikayət, 0,2%-i isə təklif xarakterli olub.

Müraciətlərin 45,3%-i müxtəlif arayışların alınması, 23,7%-i kameral vergi yoxlamaları, 7,2%-i vergi borcları, 3,6%-i vergidən yayınma, dividendlərin verilməsi, nağd hesablaşmaların aparılması qaydalarının pozulması və qanunsuz sahibkarlıq fəaliyyəti, 1,9%-i səyyar vergi yoxlamaları, 0,5%-i vergi orqanlarının vəzifəli şəxslərinin hərəkəti (hərəkətsizliyi), qalanları isə digər məsələlərlə bağlı olub.

Bütün müraciətlərə vaxtında baxılıb, onların 71,9%-i müsbət həll olunub.

Vergi orqanlarında ümumilikdə 4630 vətəndaş qəbul edilərək, onlara qanunvericilik çərçivəsində lazımi kömək göstərilib və ya müvafiq izahatlar verilib.

Mərkəzi icra hakimiyyəti orqanları rəhbərlərinin bölgələrdə vətəndaşların qəbulu qrafikinə əsasən, 2016-cı ildə vergilər naziri tərəfindən Oğuz, Neftçala, Yardımlı, Qusar, Füzuli, Göygöl, Siyəzən, Ucar şəhərlərində vətəndaşların səyyar qəbulları keçirilib, həmin qəbullarda 33 rayonda yaşayan 255 vətəndaş iştirak edib.

## ELAN

ASAN imza sertifikatının qüvvədə olma müddəti 3 il olduğundan və 2014-cü ilin yanvar və növbəti aylarında alınmış sertifikatların etibarlılıq müddəti 2017-ci ilin yanvar və növbəti aylarında bitəcəyindən, ASAN imza sertifikatının yenisini almaq üçün qüvvədə olan ASAN imzanız vasitəsilə www.asxm.gov.az/portal/login portalına daxil olub müvafiq ərizəni, müqaviləni və etibarnamələri imzaladıqdan sonra ASAN imza sim kartını dəyişərək vergi ödəyicilərinə xidmət mərkəzlərinə və ya ASAN xidmət mərkəzlərinə yaxınlaşa bilərsiniz.

ASAN imza ilə əlaqədar əlavə sualınız yaranarsa,
Vergilər Nazirliyinin 195-1 Çağrı Mərkəzinə, rəsmi internet saytının «Sual-cavab» bölməsinə www.taxes.gov.az/www.taxes/faq/sual.html və www.asxm.gov.az internet ünvanına müraciət edə bilərsiniz.

**Vergilər Nazirliyinin Asan Sertifikat Xidmətləri Mərkəzi**

# Torpaq sahəsinin satışından vergi tutulması

Torpaq sahəsinin satışının sadələşdirilmiş vergiyə cəlb edilməsi məqsədilə Vergi Məcəlləsinə 218.4.5-ci, 219.3-2-ci və 220.8-2-ci maddələr əlavə olunmuş, 150.1.9-cu, 220.8-ci və 220.8-1-ci maddələrə dəyişikliklər edilmişdir. Dəyişikliyin mahiyyəti bundan ibarətdir ki, 1 yanvar 2017-ci il tarixədək qüvvədə olan Vergi Məcəlləsinə əsasən, fiziki və hüquqi şəxslərin mülkiyyətindəki torpaq sahələrinin satışı ümumi qaydada mənfəət və gəlir vergisinə cəlb olunduğu halda, dəyişikliklərdən sonra 1 yanvar 2017-ci ildən həmin torpaq sahələrinin satışı əməliyyatlarının rəsmiləşdirilməsi zamanı yaranan vergi öhdəliyi notarius tərəfindən ödəmə mənbəyində sadələşdirilmiş vergiyə cəlb ediləcəkdir.

Vergilər Nazirliyinin Vergi siyasəti və strateji araşdırmalar departamentinin şöbə müdiri Əvəz Quliyevin şərhinə görə, verginin həcmi torpağın qanunvericiliklə müəyyən edilmiş təyinatından və yerləşməsindən asılı olacaq və kənd təsərrüfatı təyinatlı torpaqlardan başqa bütün torpaq sahələrinin satışı zamanı vergi torpaq sahəsinin hər kvadratmetrinə görə ödəniləcək: «Ölkə üzrə baza məbləği hər kvadratmetr üçün 50 qəpik müəyyənləşdirilib. Bu məbləğə torpağın kateqoriyasından və yerləşməsindən asılı olaraq əmsallar tətbiq ediləcək. Mülkiyyətdə olan torpaq sahələrinin təqdim edilməsindən torpaq sahəsinin hədiyyə, maddi yardım və ya miras formasında ailə üzvlərinə verilməsi; torpaq sahəsinin ər və arvad arasında verilməsi, keçmiş ər-arvad arasında boşanma prosesində verilməsi; torpaq sahəsinin dövlət ehtiyacları üçün alınması hallarında vergi tutulmur».

Ə.Quliyevin sözlərinə görə, torpaq sahəsinin təqdim edilməsi zamanı vergi təyinatından asılı olaraq hesablanır:

1) Kənd təsərrüfatı təyinatlı torpaq sahələrinin (təyinatı üzrə istifadə edilib-edilməməsindən asılı olmayaraq) təqdim edilməsi üzrə vergi həmin torpaq sahəsi üzrə hesablanmış torpaq vergisinin 2 misli məbləğində hesablanması:

VM=(S x ŞB x 0,06 manat) x 2

VM - ödəniləcək verginin məbləği

S - torpağın sahəsi (hektarla)

ŞB - kənd təsərrüfatı torpaqlarının təyinatı, coğrafi yerləşməsi və keyfiyyəti nəzərə alınmaqla 1 hektarı üçün müəyyən olunan şərti bal (Nazirlər Kabineti tərəfindən müəyyən edilir)

0,06 manat - kənd təsərrüfatı torpaqlarının 1 şərti balının torpaq vergisi dərəcəsi

2 - hesablanmış torpaq vergisinə tətbiq edilən əmsal.

2) Yaşayış fondlarının, həyətyanı sahələrin torpaqlarının və vətəndaşların bağ sahələrinin tutduğu torpaqların satışı zamanı vergi aşağıdakı qaydada hesablanır:

VM = SxZƏ x 0,5 manat

VM - ödəniləcək verginin məbləği

S - torpağın sahəsi ($m^2$-lə)

ZƏ - yerləşdiyi zonadan asılı olaraq əmsallar

0,5 manat - torpaq sahələrinin hər kvadratmetri üçün baza məbləği.

3) Sənaye, tikinti, nəqliyyat, rabitə, ticarət-məişət xidməti və digər xüsusi təyinatlı torpaqların sahələrinin təqdim edilməsi zamanı verginin məbləği əlavə olaraq aşağıda qeyd olunan yüksəldici əmsallar tətbiq edilməklə hesablanır:

VM = Sx ZƏ x 0,5 manat x YƏ

VM - ödəniləcək verginin məbləği

S - torpağın sahəsi ($m^2$-lə)

ZƏ - yerləşdiyi zonadan asılı olaraq əmsal

0,5 manat - torpaq sahələrinin hər kvadratmetri üçün baza məbləği

YƏ - yüksəldici əmsallar.

Torpaq sahələrini təqdim edən fiziki və hüquqi şəxslərdən notariuslar tərəfindən ödəmə mənbəyində sadələşdirilmiş vergi tutularaq 1 (bir) bank günü müddətində dövlət büdcəsinə köçürülməli və hesabat ayından sonrakı ayın 20-dən gec olmayaraq müvafiq bəyannamə vergi orqanına təqdim edilməlidir.

Bu sistemin əvvəlkindən əsas fərqi barədə iqtisadçı ekspert Rəşad Əliyev demişdir ki, tətbiq edilən yeni sistem verginin daha rahat hesablanmasına və ödənilməsinə şərait yaradacaq. Verginin hesablanması və ödənilməsi notariuslar tərəfindən alğı-satqı prosesində həyata keçirildiyi üçün bütün bu prosedurlara görə məsuliyyət də onların üzərində olacaq: «Torpağın satışını həyata keçirən şəxs verginin hesablanması və ödənilməsi prosesində iştirak etməyəcək və məntiqi olaraq buna görə hansısa məsuliyyət daşımayacaq. Əvvəlki qaydalarda isə torpaq satışını həyata keçirənlər verginin hesablanması və ödənilməsini özləri həyata keçirirdi və buna görə məsuliyyət daşıyırdılar. Torpaq satanlar digər problemlərlə də üzləşirdilər. Ən əsas problem torpağın alış qiymətini əks etdirən sənədlərin olmaması idi. Bir çox hallarda bu, obyektiv səbəblərdən irəli gəlirdi. Çünki satışa ilk dəfə çıxarılan torpaq sahələrinin alış qiymətinin olmaması təbii haldır, mülkiyyətçi həmin torpağı almayıb.

Məsələn, torpaq həmin şəxsin mülkiyyətinə özəlləşdirmə, vərəsəlik və ya digər yolla düşə bilərdi ki, bu zaman məntiqi olaraq torpağın alış qiymətləri olmur. Bu isə verginin hesablanmasında problemlər yaradırdı: fiziki şəxslər torpaq satışı üzrə gəlir vergisi ödəməli idi və verginin məbləğində torpağın alış və satış qiymətləri arasındakı fərq əsas götürülürdü. Torpaq satışının sadələşdirilmiş vergiyə cəlb edilməsi isə bu problemi tam aradan qaldırır, vergiqoyma sisteminə əsasən, satışdan vergi torpağın sahəsindən asılı olaraq ödəniləcək. Bununla da torpağın əvvəl neçəyə alınması öz əhəmiyyətini itirmiş olur».

| Torpağın yerləşdiyi ərazi (zona) | Zona əmsalı |
|---|---|
| Bakı şəhəri üzrə | |
| 1 | 4,0 |
| 2 | 3,0 |
| 3, 4 | 2,2 |
| 5, 6 | 1,8 |
| 7, 8, 9 | 1,5 |
| 10, 11, 12 | 1,2 |
| Regionlar üzrə | |
| Gəncə, Sumqayıt, Xırdalan | 1,5 |
| Abşeron rayonunun qəsəbə və kəndləri (Xırdalan şəhəri istisna olmaqla), Şirvan, Mingəçevir, Naxçıvan, Lənkəran, Yevlax, Şəki və Naftalan şəhərləri | 1,2 |
| Digər rayon (şəhər) və qəsəbələr (kəndlər) | 0,5 |

| Torpağın yerləşdiyi ərazi (zona) | Yüksəldici əmsal |
|---|---|
| Bakı şəhəri üzrə | |
| Bakı şəhəri, onun qəsəbə və kəndləri | 1,5 |
| Gəncə, Sumqayıt, Xırdalan şəhərləri | 1,3 |
| Abşeron rayonunun qəsəbə və kəndləri, Şirvan, Mingəçevir, Naxçıvan, Lənkəran, Yevlax, Şəki və Naftalan şəhərləri | 1,2 |
| Digər rayon (şəhər) və qəsəbələr (kəndlər) | 1,1 |

R.Əliyevin sözlərinə görə, torpaq sahələrinin satışının sadələşdirilmiş vergiyə cəlb edilməsi onların investisiya cəlbediciliyini də xeyli artıracaq: «Bu, torpaq bazarında aktivliyin artmasına müsbət təsir edəcək. Hazırda daşınmaz əmlak bazarında müəyyən durğunluq müşahidə olunduğundan, biz bu müsbət nəticələri tədricən hiss edə biləcəyik».

**Fəxriyyə İKRAMQIZI**

# Əsas iqtisadi prioritetlərdən biri

«Nağdsız hesablaşmalar haqqında» Qanun ölkə iqtisadiyyatında şəffaflığın artırılması, maliyyə intizamının gücləndirilməsi və vergitutma bazasının genişləndirilməsi məqsədilə nağdsız əməliyyatların stimullaşdırılması və nağd əməliyyatların məhdudlaşdırılması istiqamətində ardıcıl işlər həyata keçirmək üçün hüquqi əsas yaradır.

Nağdsız əməliyyatların həcminin artırılması, bankların maliyyə vəziyyətinin yaxşılaşdırılması, pul dövriyyəsinin tənzimlənməsi və büdcə vəsaitlərinin xərclənməsində şəffaflığın təmin olunması məqsədilə Vergi Məcəlləsində müvafiq dəyişikliklər edilmişdir. «Nağdsız hesablaşmalar haqqında» Qanunun pozulmasına görə təqvim ili ərzində belə hala birinci dəfə yol verildikdə aparılan əməliyyatların 10 faizi, ikinci dəfə yol verildikdə 20 faizi, üç və daha çox dəfə yol verildikdə isə 40 faizi miqdarında maliyyə sanksiyasının tətbiq edilməsi ilə bağlı Vergi Məcəlləsinə müvafiq maddə daxil edilmişdir.

Aksizli malların dövriyyəsi ilə bağlı qaydalara edilən dəyişikliklərdə isə bildirilir ki, pərakəndə satışda aksizli malların dəyərinin nağdsız qaydada qəbul edilməsi tələbi aradan qaldırılsa da, malı istehsal binasından çıxaran istehsalçı, topdan satan şəxs və tədarükçü sahibkarlar arasında aparılan ödənişlər mütləq şəkildə nağdsız qaydada həyata keçirilməlidir. Bununla bağlı Cinayət Məcəlləsində və İnzibati Xətalar Məcəlləsində də müvafiq dəyişikliklər edilib.

«Nağdsız hesablaşmalar haqqında» Qanunda hesablaşmaların üç forması müəyyən edilib: bir şəxsin bank hesabından digər şəxsin bank hesabına köçürülməklə və ödəniş vasitələri ilə həyata keçirilən hesablaşmalar, ödəniş terminalları ilə aparılan hesablaşmalar və birbaşa nağd qaydada satıcının bank hesabına köçürülməklə həyata keçirilən hesablaşmalar. Qanunda hər iki tərəf sahibkar olarsa, hesablaşma formasının necə həyata keçirilməli olduğu dəqiq göstərilir: bir sahibkar digər sahibkarın bank hesabına nağd vəsait yerləşdirə bilməz. Bununla yanaşı, Vergi Məcəlləsinə banklardan nağd pul vəsaitlərinin çıxarılmasının məhdudlaşdırılması məqsədilə hüquqi şəxslər və fərdi sahibkarlar tərəfindən pul vəsaitlərinin nağd qaydada bank hesablarından çıxarılmasına görə banklar və poçt rabitəsinin milli operatorları tərəfindən 1 faiz dərəcəsi ilə sadələşdirilmiş verginin tutulmasına dair maddə də daxil edilmişdir.

«Nağdsız hesablaşmalar haqqında» Qanunun müvafiq müddəalarına əsasən sığorta haqlarının qəbulu və sığorta ödənişləri də nağdsız şəkildə həyata keçirilməlidir. Bu qayda həm könüllü, həm də icbari sığorta növlərinə aid edilib. İqtisadçı ekspert Xəyal Məmmədxanlının sözlərinə görə, sığorta haqlarının və sığorta ödənişlərinin nağdsız şəkildə həyata keçirilməsi sığorta sektorunda şəffaflığın yaranmasına şərait yaradacaq. Bankda hesabı olan müştərilərin işləri daha da asanlaşacaq, onlar sığorta haqqını öz hesabından elektron qaydada ödəyə biləcək və ya sığorta ödənişi müştərinin bank hesabına köçürüləcək.

Ümumiyyətlə, sığorta şirkətlərinin rəhbərlərinin və sığorta ekspertlərinin ümumi qənaətinə görə, bu sahədə nağdsız ödənişlərin tətbiqi tərəflər üçün heç bir problem yaratmayacaq. Çünki sığorta şirkətləri bir deyil, bir neçə bankla əməkdaşlıq etdiyi üçün müştərilər özlərinə yaxın ərazidə yerləşən bankda hesab aça biləcəklər. Sığorta ödənişinin verilməsi isə daha asan həyata keçiriləcək. Bundan sonra sığorta şirkətinə gəlməyə ehtiyac qalmayacaq. Sığorta ödənişinin veriləcəyi dəqiqləşdikdən sonra vəsait müştərinin bank hesabına dərhal köçürüləcək. Sığorta ödənişi alan vətəndaşlardan isə vergi tutulmayacaq. Yalnız hüquqi şəxslərə, yəni şirkət və müəssisələrə verilən sığorta ödənişindən 1 faizlik nağdlaşdırmaya görə sadələşdirilmiş vergi çıxılacaq.

«Nağdsız hesablaşmalar haqqında» Qanuna uyğun olaraq ödənişlərin internet vasitəsilə həyata keçirilməsi üçün Rabitə və Yüksək Texnologiyalar Nazirliyi ilkin mərhələdə Bakı şəhərini, daha sonra isə respublikanın digər şəhər və regionlarını əhatə edəcək tədbirlər həyata keçirməyi planlaşdırır. Yaxın vaxtlarda istifadəyə verilməsi nəzərdə tutulan «Şəbəkə» xidməti mərkəzlərində nazirliyin bütün xidmətləri vahid bir mərkəzdən təqdim ediləcək. Bu mərkəzlərdə rabitə və poçt xidmətləri üzrə ödənişlər qəbul ediləcək və özünəxidmət terminalları fəaliyyət göstərəcək. İlk «Şəbəkə» xidmət mərkəzi Üzeyir Hacıbəyli 36 ünvanında yerləşən 1 saylı poçt filialında istifadəyə veriləcək.

Telefon və internet xidmətləri üzrə aylıq abunə haqlarının müvafiq poçt şöbələrində və telekommunikasiya qovşaqlarında poçt əməliyyatçıları tərəfindən, eləcə də onlayn və ödəmə terminalları vasitəsilə qəbul edilməsi üçün tədbirlər həyata keçirilir. Vətəndaşlar Bakı şəhərində fəaliyyət göstərən telekommunikasiya qovşaqlarına (ATS) gələrək poçt əməliyyatçılarına abunə haqları ödənişlərini nağdsız şəkildə POS-terminallar vasitəsilə birbaşa plastik kartlardan ödəyə bilərlər.

Yeri gəlmişkən onu da qeyd edək ki, ölkəmizdə indiyədək 75 mindən artıq POS-terminal quraşdırılmış və müştərilərin istifadəsinə 5 milyondan artıq bank kartı verilmişdir.

**Rəşad SADIQOV**

## ELAN

**Hörmətli vergi ödəyicisi!**

Fəaliyyətiniz zamanı vergi orqanı əməkdaşları tərəfindən yol verilən korrupsiya və digər hüquqpozma halları ilə rastlaşdıqda, aşağıdakı imkanlardan istifadə etməklə, vergi orqanına müraciət edə bilərsiniz:

* Vergilər Nazirliyinin rəsmi internet səhifəsində (www.taxes.gov.az) «Onlayn müraciətlər» bölməsinin «Vergi orqanı əməkdaşlarının fəaliyyətində korrupsiya və digər hüquqpozma halları barədə məlumat ver» alt bölməsinə;
* Vergilər Nazirliyinin poçt ünvanına və ya Daxili təhlükəsizlik Departamentinə üzərində «MƏXFİ - Daxili təhlükəsizlik Departamentinə» qeydi olan məktubları göndərməklə.
  Ünvan: AZ1073, Bakı şəhəri, Landau küçəsi 16, Vergilər Nazirliyi;
* Daxili təhlükəsizlik Departamentinə gəlməklə və məlumatı şəxsən (şəxsiyyətinizi təsdiq edən sənədlə) təqdim etməklə.
  Ünvan: AZ1073, Bakı şəhəri, Landau küçəsi 16, Vergilər Nazirliyi, Daxili təhlükəsizlik Departamenti;
* Vergilər Nazirliyinin Çağrı Mərkəzinə (195-1) zəng etməklə.

Vergilər Nazirliyi

## vergi təqvimi

**YANVAR**

| I | II | III | IV | V | VI | VII |
|---|---|---|---|---|---|---|
| | | | | | | 1 |
| 2 | 3 | 4 | 5 | 6 | 7 | 8 |
| 9 | 10 | 11 | 12 | 13 | 14 | 15 |
| 16 | 17 | 18 | 19 | 20 | 21 | 22 |
| 23 | 24 | 25 | 26 | 27 | 28 | 29 |
| 30 | 31 | | | | | |

*Qeyd: Verginin ödənilmə və bəyannamənin (o cümlədən arayışın) verilmə müddətinin sonuncu günü təqvimdə yaşıl rənglə qeyd edilmişdir. Həmin gün istirahət və ya bayram gününə düşdüyü halda növbəti iş gününə keçirilir.*

**Ödənilən vergi:**

16 yanvar - «(1)», «(2)»

23 yanvar - «1-1», «1-2», «3», «4», «7», «8», «9», «9-1», «10.1», «10.2», «10.3» və «11»

31 yanvar - «10.1»

**«(1) və (2)» - Gəlir və mənfəət vergisi:** Gəlir və mənfəət vergisi üzrə hesabat dövrü təqvim ilidir. Hüquqi şəxslər və fərdi sahibkarlar rüb qurtardıqdan sonra 15 gündən gec olmayaraq cari ödəmələri dövlət büdcəsinə ödəməlidirlər. Bələdiyyə mülkiyyətində olan müəssisə və təşkilatlar mənfəət vergisini yerli büdcəyə (bələdiyyə büdcəsinə) ödəyirlər. Cari vergi ödəmələri vergi ili üçün vergi ödəyicisindən tutulan verginin məbləğinə aid edilir.

Vergi ödəyicisi il ərzində cari vergi ödəmələrinin məbləğini öz seçiminə əsasən aşağıda göstərilən iki mümkün metoddan birinə uyğun müəyyənləşdirə bilər.

Birinci metod: Hər rüb üçün cari ödəmələrin məbləği əvvəlki vergi ilində hesablanmış verginin 1/4 hissəsi məbləğində müəyyən edilir.

İkinci metod: Cari rübdəki gəlirin məbləğini keçən ilin ümumi gəlirində (gəlirdən çıxılan məbləğlər nəzərə alınmadan) verginin xüsusi çəkisini göstərən əmsala vurmaqla müəyyən edilir. Bu zaman vergi ödəyicisi il ərzində cari vergi ödəmələrinin məbləğini müəyyənləşdirməyin yuxarıdakı iki mümkün metodundan birini seçir və hər il aprel ayının 15-dən gec olmayaraq bu barədə vergi orqanına məlumat verir. Vergi ödəyicisi cari vergi ödəmələrinin məbləğini müəyyənləşdirmək üçün tətbiq etdiyi metod barədə məlumat vermədiyi halda vergi orqanı birinci metodu tətbiq edir.

Vergi ödəyicisi cari vergi ödəmələrinin məbləğini müəyyənləşdirmək üçün ikinci metodu seçdiyi halda, hər rüb başa çatdıqdan sonra 15 gün ərzində mənfəətdən və ya gəlirdən hesablanmış cari vergi məbləği barədə vergi orqanına arayış təqdim etməlidir, əks halda, vergi orqanı birinci metodu tətbiq edir.

Əvvəlki vergi ilində fəaliyyəti olmayan və növbəti vergi ilndə fəaliyyət göstərən, habelə yeni yaradılmış və fəaliyyət göstərən vergi ödəyiciləri mənfəət və ya gəlir vergisi üzrə cari vergi ödəmələrini təqvim ili ərzində rüblər üzrə artan yekunla hesablamalı, cari vergi ödəmələrinin məbləği mənfəətdən və ya gəlirdən verginin məbləğinin 75 faizindən az olmamalı, rüb başa çatdıqdan sonra 15 gün ərzində cari vergi ödəmələrini aparmalı və rüb ərzində mənfəətdən və ya gəlirdən hesablanmış cari vergi məbləği barədə vergi orqanına arayış təqdim etməlidir.

**«(1-1)» - Gəlir vergisi (xüsusi notariuslar üzrə):** Xüsusi notariusların gəlir vergisi üzrə hesabat dövrü rübdür.

Xüsusi notariuslar tərəfindən hər bir ay ərzində aparılan notariat hərəkətlərinə, habelə notariat hərəkətləri ilə əlaqədar göstərilən xidmətlərə görə alınan haqlardan (xərclər nəzərə alınmadan) 10 faiz dərəcə ilə gəlir vergisi hesablanmalı, hesablanmış vergi məbləği isə növbəti ayın 20-dən gec olmayaraq dövlət büdcəsinə ödənilməlidir.

Xüsusi notariuslar tərəfindən aparılan notariat hərəkətlərinə, habelə notariat hərəkətləri ilə əlaqədar göstərilən xidmətlərə görə alınan haqlardan (xərclər nəzərə alınmadan) hesablanan gəlir vergisi barədə «Xüsusi notariusun gəlir vergisi bəyannaməsi» hər rüb başa çatdıqdan sonra növbəti ayın 20-dən gec olmayaraq vergi orqanına təqdim edilməlidir.

**(«1-2») - Gəlir vergisi (İdman mərc oyunları üzrə)** İdman mərc oyunlarından uduşlar əldə edən şəxsdən ödəmə mənbəyində tutulan gəlir vergisi üzrə hesabat dövrü aydır.

İdman mərc oyunlarından uduşlar əldə edən şəxsə ödəmələr verən şəxslər ödəmə mənbəyində vergini tutmağa, hesabat ayından sonrakı ayın 20-dən gec olmayaraq hesablanmış vergini dövlət büdcəsinə köçürməyə və «İdman mərc oyunlarından uduşlar əldə edən şəxsdən ödəmə mənbəyində tutulan gəlir vergisinin bəyannaməsi»ni vergi orqanına verməyə borcludurlar.

**«3» - Əlavə dəyər vergisi:** ƏDV üzrə hesabat dövrü təqvim ayı sayılır. ƏDV ödəyən vergi ödəyicisi ƏDV-nin bəyannaməsini hər hesabat dövrü üçün, hesabat dövründən sonrakı ayın 20-dən gec olmayaraq qeydiyyatda olduğu vergi orqanına verməli və həmin müddətdə vergini dövlət büdcəsinə ödəməlidir.

**«4» - Aksizlər:** Aksizlər üzrə hesabat dövrü təqvim ayıdır. Aksizli mallar istehsal edildikdə hər hesabat dövrü üçün vergi tutulan əməliyyatlar üzrə aksizlər hesabat dövründən sonrakı ayın 20-dən gec olmayaraq dövlət büdcəsinə ödənilməli və həmin müddətdə vergi orqanına bəyannamə verilməlidir.

**«7» - Yol vergisi** üçün hesabat dövrü təqvim ayı sayılır. Azərbaycan Respublikasının ərazisində avtomobil benzininin, dizel yanacağının və maye qazın istehsalı ilə məşğul olan fiziki və hüquqi şəxslər yol vergisini aylıq olaraq hesablayır və hesabat ayından sonrakı ayın 20-dən gec olmayaraq «Yol vergisinin bəyannaməsi»ni vergi orqanına təqdim etməklə vergini dövlət büdcəsinə ödəyirlər.

**«8» - Mədən vergisi:** Mədən vergisi üzrə hesabat dövrü təqvim ayıdır. Mədən vergisinin ödəyiciləri hesabat ayı üçün faydalı qazıntıların çıxarıldığı aydan sonrakı ayın 20-dən gec olmayaraq vergini ödəyir və bəyannamə verirlər. Yerli əhəmiyyətli tikinti materialları üzrə mədən vergisi yerli (bələdiyyə) büdcəyə ödənilir və bələdiyyələrə mədən vergisinin bəyannaməsi verilir. Yerli əhəmiyyətli tikinti materiallarına kərpic-kirəmit gilləri, tikinti qumları, çınqıl xammalı aid edilir.

**«9» - Sadələşdirilmiş vergi:** Sadələşdirilmiş vergi üçün hesabat dövrü rübdür. Sadələşdirilmiş verginin ödəyicisi olan şəxslər hesabat rübündən sonrakı ayın 20-dən gec olmayaraq ödənməli olan verginin məbləği haqqında vergi orqanına bəyannamə verir və həmin müddətdə vergini dövlət büdcəsinə ödəyirlər.

**(«9-1») - Sadələşdirilmiş vergi (Yaşayış və qeyri-yaşayış sahələrinin təqdim edilməsi üzrə)** - Yaşayış və qeyri-yaşayış sahələrinin təqdim edilməsi üzrə müqavilələri təsdiq edən notarius sadələşdirilmiş vergini hesablayaraq 1 (bir) bank günü ərzində dövlət büdcəsinə ödəməyə və hesabat ayından sonrakı ayın 20-dən gec olmayaraq «Yaşayış və qeyri-yaşayış sahələrini təqdim edən şəxslərdən notariuslar tərəfindən ödəmə mənbəyində tutulan sadələşdirilmiş vergi bəyannaməsi»ni vergi orqanına verməyə borcludurlar.

**«10.1» - Muzdlu işlə əlaqədar ödəmə mənbəyində tutulan vergi:** Muzdlu işlə əlaqədar ödəmə mənbəyində vergi tutan ƏDV və sadələşdirilmiş vergi ödəyicilərinin bu ödəmələr üzrə hesabat dövrü vergi ili, digər vergi ödəyicilərinin hesabat dövrü isə rübdür.

Muzdla işləyən fiziki şəxslərə ödəmələr verən hüquqi şəxslər və fərdi sahibkarlar muzdla işləyən fiziki şəxslərin hesablanmış aylıq gəlirinə gəlir vergisini hesablamalı və hesablanmış məbləği növbəti ayın 20-dən gec olmayaraq dövlət büdcəsinə ödəməlidirlər.

Muzdlu işlə əlaqədar ödəmə mənbəyində tutulan vergilər barədə bəyannaməni ƏDV və sadələşdirilmiş verginin ödəyiciləri hesabat ilindən sonrakı ilin yanvar ayının 31-dən gec olmayaraq, digərləri isə hesabat rübü başa çatdıqdan sonra növbəti ayın 20-dən gec olmayaraq vergi orqanına təqdim etməlidirlər.

**«10.2» - Ödəmə mənbəyində tutulan digər vergilər**: ƏDV və sadələşdirilmiş verginin ödəyicilərinin muzdlu işlə əlaqədar aparılan ödəmələri istisna olmaqla, ödəmə mənbəyində tutulan digər vergilər üzrə hesabat dövrü rübdür. Hüquqi şəxslər və fərdi sahibkarlar qeyri-dövlət pensiyaları və ödəmə mənbəyində vergiyə cəlb olunmalı digər ödəmələri verərkən bu gəlirlərdən vergini tutmalı, tutulmuş məbləği gəlirin ödənildiyi rübdən sonrakı ayın 20-dən gec olmayaraq dövlət büdcəsinə köçürülməli və həmin müddətdə də bəyannaməni vergi orqanına təqdim etməlidirlər.

**«10.3» - Sığorta müqaviləsinə vaxtından əvvəl xitam verildikdə ödəmə mənbəyində tutulan vergi:** Həyatın yığım sığortası və pensiya sığortası üzrə bağlanılmış sığorta müqaviləsinə vaxtından əvvəl xitam verildikdə aparılan ödəmələrdən ödəmə mənbəyində tutulan verginin hesabat dövrü rübdür.

Həyatın yığım sığortası və pensiya sığortası üzrə bağlanılmış sığorta müqaviləsinə vaxtından əvvəl xitam verildikdə, sığorta haqları ödəyən sığortaçılar fiziki şəxslərin hesablanmış aylıq gəlirinə gəlir vergisi hesablamalı, hesablanmış vergini növbəti ayın 20-dən gec olmayaraq dövlət büdcəsinə ödəməli və gəlirin ödənildiyi rübdən sonrakı ayın 20-dən gec olmayaraq bəyannaməni vergi orqanına təqdim etməlidirlər.

**«11» - Dövlət rüsumu:** Dövlət rüsumu üzrə hesabat dövrü rübdür. Notariat hərəkətlərinə görə dövlət rüsumu notarius tərəfindən qəbul edildilərək iki bank günü ərzində, Azərbaycan Respublikasının xarici ölkələrdəki diplomatik nümayəndəliklərində aparılan konsul əməliyyatları üçün alınan dövlət rüsumu bir ay ərzində, digər dövlət rüsumları isə tutulduqdan sonra bir bank günü ərzində dövlət büdcəsinə köçürülür.

«Dövlət rüsumu haqqında» Qanunda nəzərdə tutulmuş dövlət rüsumunu tutan şəxslər hesabat rübündən sonrakı ayın 20-dək dövlət rüsumunun tutulması barədə hesabatları vergi orqanına təqdim etməlidirlər.

beynəlxalq panoram

# Niderland korporativ verginin dərəcəsini azalda bilər

Bir neçə həftə bundan əvvəl korporativ verginin dərəcəsini azaltmaq təşəbbüsü ilə çıxış etmiş maliyyə naziri Yerun Deysslelblum yanvarın əvvəlində nəşr edilmiş müsahibəsində qeyd etmişdir ki, korporativ verginin dərəcəsinin 25%-ə qaldırılması Niderland və xarici şirkətlər arasında tarazlıq yaratmağa imkan verəcək. Bu mülahizəni irəli sürərkən nazir hökumətin deyil, Niderlandın əmək partiyasının adından çıxış etdiyini vurğulamışdır. Qeyd edək ki, ölkənin maliyyə naziri Yerun Deysslelblumun rəhbərlik etdiyi partiya hazırda korporativ verginin azaldılmasının əleyhinə çıxış edir.

Bununla belə, nazirin keçən ilin noyabrında verdiyi açıqlama ilə son bəyanatı arasında ciddi fərq olduğu görünür. O vaxt bildirilmişdi ki, əgər hökumət vergi qaydalarının OECD-nin BEPS tövsiyələrinə uyğunlaşdırılması məqsədilə transmilli şirkətlər üçün köçürmələri və xüsusi vergi sxemlərini ləğv edərək korporativ verginin dərəcəsini azaltmasa, Niderlandın digər ölkələrlə rəqabət aparması çətinləşəcək. Hazırkı koalisiya hökumətində ən böyük yer tutan mərkəzçi Xalq Partiyası isə bu ilin mart ayında keçiriləcək seçkilərdən sonra bütün şirkətlərdən tutulan korporativ verginin azaldılmasına çalışdığını bəyan etmişdir. Partiyanın çağırışları arasında kapitalın artımından tutulan vergi ilə nisbətdə əmək vergisinin azaldılması, eləcə də vergi rejiminin sadələşdirilməsi kimi vədlər də vardır.

# Tüfeylilik vergisinin ödənilməsinin vahid müddəti müəyyənləşdirilib

Ölkə başçısının yanvarın 12-də imzaladığı 1 nömrəli dekretə əsasən, dövlət xərclərinin maliyyələşdirilməsində iştirak etməyən vətəndaşlardan yığımların (başqa sözlə, tüfeylilik vergisinin) ödənilməsinin vahid müddəti müəyyənləşdirilmişdir. Sənəddə göstərilir ki, dövlət xərclərinin maliyyələşdirilməsi üçün yığımın vahid müddəti 2015-ci ildə 183 gündən az işləyənlər üçün 2017-ci il fevralın 20-dək müəyyənləşdirilmişdir. Belarus Respublikasının Vergilər və Yığımlar Nazirliyinin mütəxəssislərinin açıqlamasına görə, vergi orqanlarından alınmış bildirişdə hansı tarixin göstərilməsindən asılı olmayaraq Prezidentin imzaladığı dekretdəki vahid tarix tüfeylilik vergisi ödəməli olan hər kəsə aiddir. Nazirliyin məlumatına görə, indiyədək ölkədə 24 min insan tüfeylilik vergisi ödəmişdir ki, bu da büdcəyə təxminən 7 milyon rubl (658 manat) əlavə vəsaitin daxil olması deməkdir.

# Tramp avtomobil idxalına 35% vergi qoyulacağını bildirib



ABŞ-ın yeni seçilmiş Prezidenti Donald Tramp ölkə rəhbərliyinə başlayan kimi Almaniyadan idxal edilən avtomobillərə 35% vergi qoyulacağını vəd etməklə Almaniyanın avtomobil sənayesinin təmsilçilərində narazılıq yaratmışdır. Hakimiyyət başına gəlmək ərəfəsində Almaniyada nəşr edilən «Bild» jurnalına verdiyi müsahibədə Tramp alman istehsalçılarını maşınları ABŞ ərazisində istehsal etmək istəmədiklərinə görə kəskin tənqid etmişdir: «Əgər siz maşınları bütün dünya üçün yığmaq istəyirsinizsə, sizə ən gözəl arzularımı çatdırıram. Siz ABŞ üçün də maşınlar yığa bilərsiniz, lakin sərhədi keçən hər bir avtomobilə görə 35% dərəcə ilə ixrac vergisi ödəyəcəksiniz, - ABŞ Prezidenti demişdir. - Mən lap elə «BMW»ni deyirəm, Meksikada istehsalat obyektləri tikmək belə ona kömək etməyəcək».

Ekspertlərin qiymətləndirmələrinə görə, ABŞ Prezidenti iş yerlərini əsaslı şəkildə artırmaq barədə vədlərini gerçəkləşdirməyə çalışaraq dünya avtomobil sənayesinə təzyiq göstərmək qərarına gəlmişdir. Bu sənaye illər uzunu Amerika bazarında iştirak etmək üçün Meksikanın ucuz başa gələn istehsal imkanlarından istifadə etməkdədir.

Trampın bəyanatından sonra səhmlərinin qiymətində cüzi azalma müşahidə edilən Almaniyanın avtomobil sənayesi bu çıxışı təmkinlə qarşılamışdır. «BMW» konserninin rəhbəri Piter Şvartsenbauer bildirmişdir ki, onun şirkəti Meksikada yeni zavodun tikintisindən imtina etmək fikrində deyil. Almaniyanın iqtisadiyyat naziri Ziqmar Qabriel isə öz ölkəsinin ərazisinə maşınların idxalına məhdudiyyət qoymaq əvəzinə, Amerika avtomobil sənayesinə yaxşı avtomobillər istehsal etməyi məsləhət görmüşdür.

Meksikanın iqtisadiyyat naziri İldefonso Quacardo isə bəyan etmişdir ki, ABŞ-ın yeni fəaliyyətə başlayan Prezidentinin malların idxalına münasibətdə vergilərin dərəcəsinin dəyişdiriləcəyi ilə bağlı açıqlamaları qlobal iqtisadi problem səciyyəsi daşıyır və Meksika təcili cavab tədbirləri görməyə hazır olmalıdır. Nazir bu tədbirlərin hansı formada olacağı barədə dəqiq məlumat verməmişdir, lakin bir faktı vurğulamışdır ki, Meksika Amerika malları üçün ən böyük ixrac bazarı hesab edilir.

## Xəbər lenti

**Kanada**nın Britaniya Kolumbiyası əyalətinin hökuməti daşınmaz əmlaka görə vergi ödənilməsi üzrə mənzilin dəyərinin vergi güzəşti verilən həddini yuxarı qaldırmağı planlaşdırır. Vergi güzəştləri dəyəri 1,6 milyon Kanada dollarına (1,2 milyon ABŞ dolları) qədər olan evlərə tətbiq olunacaq.

**ABŞ**-ın mal əti istehsalçıları Avropadan idxal edilən motosikletlərə 100%-li idxal rüsumunun artırılmasını tələb etmişlər. Bu qəribə tələb Avropa İttifaqında ABŞ ət məhsullarının satışına qadağa qoyulması ilə bağlıdır.

**Rusiya**nın Maliyyə Nazirliyi oyun biznesinə qoyulan vergi dərəcələrinin ikiqat artırılması ilə bağlı məsələ ilə ciddi şəkildə məşğul olmaq barədə qərar qəbul etmişdir.

**Xorvatiya**nın büdcə kəsiri maliyyə islahatları və gəlirlərin gözlənildiyindən daha artıq daxil olması sayəsində iki faizə qədər enə bilər. Beynəlxalq Valyuta Fondunun ölkə üzrə məruzəsində bu məqama xüsusi diqqət yetirilmişdir. Son vergi islahatları çərçivəsində ölkədə əmək və sahibkarlıq fəaliyyətinin vergi yükü azaldılmış, ƏDV rejiminin reqressivliyi zəifləndilmiş və bir sıra vergi güzəştləri ləğv edilmişdir.

**Yunanıstan**ın Maliyyə Nazirliyinin məlumatına əsasən, ölkədə xarici dövlət nömrəsi olan maşınların sayı əsaslı şəkildə artmışdır. Bununla da bahalı avtomobil sahibləri yol və dəbdəbə vergisinin ödənilməsindən yayınırlar. KİV-in yazdığına görə, bahalı maşın sahibləri vergi ödəməmək üçün avtomobilləri qonşu ölkələrdən lizinqə və ya icarəyə götürürlər.

**Fransa** auditorlar məhkəməsinin hökumətə müraciətində bildirilir ki, əgər ölkədə tətbiq olunan korporativ vergi dərəcəsi orta Avropa səviyyəsində olmasa, Fransa öz rəqabət qabiliyyətini itirə bilər.

**Yunanıstan** hökuməti Karpatos, Milos, Skiros, Siros, Alonisos, Kea, Antiparos, Tasos, Andros, Tinos və Sifnos adalarında əlavə dəyər vergisi üçün tətbiq olunmuş güzəştləri bu ilin əvvəlindən ləğv etmişdir. Əvvəllər 16 faizlə tutulan ƏDV indi 24 faizlə hesablanır.

**Makao**nun oyun inspeksiyasının rəhbəri Paulo Martins Çan bəyan etmişdir ki, hökumət qumar oyunlarına qoyulan vergiyə yenidən baxır. Qeyd edək ki, Makaonun illik gəlirinin 75%-ni qumar oyunlarına aid vergilər və digər yığımlar təşkil edir.

**ABŞ** Prezidentinin müşaviri «ABC News» televiziya kanalına müsahibəsində Trampın vergi bəyannaməsinin ictimaiyyətə açıqlanması ilə bağlı keçirilən imza kampaniyası ilə bağlı suala cavab verərkən bəyan etmişdir ki, ölkə başçısı vergi bəyannaməsini açıqlamayacaq.

**İrlandiya**da PwC şirkətinin apardığı araşdırmanın nəticələrinə görə, rəyi soruşulan müəssisə rəhbərlərinin 75%-i Breksitlə bağlı narahatlıq keçirir və belə hesab edir ki, Aİ-dən çıxmaq «toz yatandan sonra» ölkə iqtisadiyyatına mənfi təsir göstərəcək.

**Rusiya**da ölkənin məcmu büdcəsinə vergi daxilolmaları 2016-cı ildə əvvəlki illə müqayisədə 5% artmışdır. ƏDV ödənişində 8,5%, gəlir vergisində 6,6%, fiziki şəxslərin gəlir vergisində isə 7,5% artım olmuşdur.

# Tayvanda siqaret üçün aksiz və vərəsəlik vergisinin dərəcəsi artırılır

Bu sahədə müvafiq dəyişiklikləri nəzərdə tutan qanun layihəsi Tayvan hökuməti tərəfindən qəbul edilərək parlamentdən də keçmişdir. Qanun layihəsi yaşlı insanlara qulluq üzrə uzunmüddətli proqramın maliyyələşdirilməsi üçün zəruri olan əlavə vəsaitlərin əldə edilməsinə yönəldilmişdir. Birinci təklif 20 ədədlik siqaret qutusu üçün 20 Tayvan dolları məbləğində (1,14 manat) aksiz tətbiq edilməsini nəzərdə tutur.

Bundan əlavə, hazırda vərəsəlik və hədiyyələr üçün verginin dərəcəsi də ölkədə maksimal həddə - 20%-ə qədər artırılacaq. Verginin məbləği vəsiyyətin və ya hədiyyənin miqyasından asılı olaraq, proqressiv əsas üzrə artırılacaq.

Hesablamalara görə, bu qanun dəyişikliyi sayəsində əlavə illik vergi daxilolmaları 28,8 milyard Tayvan dolları (1,65 milyard manat) təşkil edəcək ki, bu vəsaitdən yaşlı insanlara qulluq proqramının sabit maliyyə mənbəyi kimi istifadə olunacaq.

# İkitərəfli saziş imzalanıb

Yaponiyanın iri şirkətlərindən birinin Hindistanda yerləşən törəmə şirkəti ilə Hindistan arasında qiymətqoyma ilə bağlı ikitərəfli saziş imzalanmışdır. Bu sazişlə eyni vaxtda Hindistan ilə Yaponiya arasında hazırda mövcud olan ticarət məhdudiyyətlərinin azaldılmasını təmin edəcək üç əlavə saziş də bağlanmışdır. Hindistanın Birbaşa Vergilər üzrə Mərkəzi Şurası ümumilikdə səkkiz ikitərəfli saziş bağlamışdır. Qeyd edək ki, qiymətqoyma sazişi sxemi 2012-ci ildə Hindistanda qüvvədə olan gəlir vergisi haqqında qanuna əlavə edilmişdir.

Birbaşa Vergilər üzrə Mərkəzi Şura tərəfindən bildirilmişdir: «İkitərəfli sazişin imzalanması transfer qiymətqoyma sahəsində, eləcə də şirkətlər arasında beynəlxalq ticarət proseslərində və mübahisələrin həllində müəyyənlik yaradılması yolunda atılmış mühüm addımdır. Qiymətqoyma barədə ikitərəfli saziş iki ölkənin vergi administrasiyaları arasında qarşılıqlı anlaşmaya və transfer qiymətqoyması dəqiqləşdirməyə şərait yaratdığına görə, müsbət hadisə sayıla bilər. Qiymətqoyma sazişi sxeminin irəliləyişi hökumətin vergi rejimini gücləndirmək üzrə missiyasını tamamlayır».

## krossvord



**Yuxarıdan aşağı:** 1.Ongünlük; 2.Ruslarda toy mərasimində verilən dairəvi çörək, adətən, şirin maya ilə hazırlanır və bəzədilir; 3.Musiqi janrı. Psixoloji vəziyyət; 4.ABŞ-da ştat; 5.Azərbaycanın xalq yazıçısı, məşhur dramaturq və kinossenaristin adı. «Uzaq sahillərdə» povestinin həmmüəllifi; 6.İnternatura keçən tibb məzunu; 9.Fransız yazıçı, ədəbiyyatda elmi fantastika janrının görkəmli nümayəndələrindən biri («Kapitan Qrantın uşaqları», «80 gün dünya ətrafında» əsərlərinin müəllifi); 13.Kimyəvi element; 15.Zərif yunlu qoyun növü; 16.Nizamlanmış kəmiyyətlər yığımı; 17.İngilislərdə yüksək təbəqəyə mənsub kişilərə müraciət forması; 18.Radio və televiziyada mətnləri oxuyan; 20.«Söyüdlü arx» romanının müəllifinin adı; 21.«Ögey ana» filminin rejissorunun adı.

**Soldan sağa:** 1.Qlükozanın əvvəlki adı; 5.Rəqəm; 7.Müasir Tunis şəhərinin yaxınlığında xaraba şəhər muzeyi. Eyniadlı qədim imperiyanın paytaxtı; 8.Aralıq dənizində ada; 10.Dünya İqtisadi Forumunun keçirildiyi şəhər; 11.Bitki növü; 12.Çin Xalq Respublikasında məskunlaşmış türkdilli xalq; 14.Yaponiyada çəkilmiş animasiya filmi; 19.Gürcü əsatir qəhrəmanı; 21.İngiltərə yazıçısı C.K.Roulinqin məşhur romanında baş qəhrəmanın adı; 22.Türk və altay xalq mədəniyyətində bərəkət mərasimi; 23.Müxtəlif sahələr üzrə fəaliyyət göstərən istehsal müəssisələrinin birliyi; 24.Fransada çay; 25.Qərbi Azərbaycanın qədim mahallarından biri.



«Ögey ana» filmindən epizod

Tərtib etdi: Rafael

*Qəzetimizin ötən nömrəsində getmiş krossvordun cavabları:*

**Yuxarıdan aşağı:** 1.Amfora; 2.Potsdam; 3.İldan; 4.Uroloq; 5.Kadet; 6.Naqano; 9.Beko; 13.Anar *(Məmmədxanov)*; 15.Bobsley; 16.Sezann *(Pol)*; 17.Vandal; 18.Brınza; 20.Tarif; 21.Şekel. **Soldan sağa:** 1.Amplituda; 5.Kin; 7.Fotodiod; 8.Adaq; 10.Roden; 11.Oberton; 12.Əmrah *(İpək)*; 14.Hobbi; 19.Estrada; 21.Şubar; 22.Aqra; 23.Odekolon; 24.Nəf; 25.Balalayka.

Vergilər
SOSİAL-İQTİSADİ HƏFTƏLİK
12 fevral 2000-ci ildən çıxır

Təsisçi: Azərbaycan Respublikası Vergilər Nazirliyi

Baş redaktor: Anar Əliyev anar.eliyev@taxes.gov.az

Baş redaktor müavini: Məti Osmanoğlu redaksiya@vergiler.az

Qeydiyyat şəhadətnaməsi № R148
VÖEN: 1300327481
IBAN: AZ46ATAZ01200012258000138090
Atabank ASC. Kod: 507581
VÖEN: 9900006651

M/h: AZ50NABZ01350100000000032944
S.W.I.F.T. BIK ATAZAZ22

Ünvan: AZ 1141, Bakı ş., Əbdürrəhim bəy Haqverdiyev küç., 60

Telefon: 012 403 87 89, 012 403 87 95 (faks / abunə ilə bağlı)

«Vergilər» qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş və «Azərbaycan» nəşriyyatında çap olunmuşdur.

Tiraj: 15000

## idman

# «Olimpiya hərəkatı-2017»yə start verildi



Məktəblilərin «Olympic Moves» proqramı çərçivəsində velosiped yarışlarına start verilib. İlk yarış Xətai rayonunda fəaliyyət göstərən general Məhəmməd Əsədov adına 29 saylı orta məktəbin şagirdləri arasında baş tutub.

Qeyd edək ki, «Olympic Moves» yarışları Beynəlxalq Olimpiya Komitəsinin və Olimpiya Oyunlarının ümumdünya tərəfdaşı olan «Coca-Cola» şirkəti, Milli Olimpiya Komitəsi, Gənclər və İdman Nazirliyi, həmçinin Təhsil Nazirliyinin birgə tərəfdaşlığı ilə həyata keçirilən məktəblilərin kütləvi idman proqramı çərçivəsində təşkil edilir.

Reqlamentə əsasən, kollektivlər 400 metrlik marşrut boyunca estafet sistemi üzrə yarışıblar. Nəticələrə gəlincə, 29 saylı orta məktəbin 8a sinfinin komandası 1-ci yerə layiq görülüb. 7a və 8b siniflərinin komandaları isə müvafiq olaraq 2-3-cü yerləri tutublar. Diqqət çəkən məqamlardan biri də odur ki, qalib komandanın heyətində 3 saylı Uşaq Evinin 2, 2-ci yeri tutan komandanın heyətində isə 1 şagirdi yer alır.

Qaliblər Milli Olimpiya Komitəsi və Azərbaycan Velosiped İdman Federasiyası tərəfindən kubok, diplom və hədiyyələrlə təltif ediliblər.

# Voleybol üzrə Avropa çempionatının təqvimi açıqlanıb




Sentyabrın 22-dən oktyabrın 1-dək Azərbaycanın və Gürcüstanın birgə ev sahibliyi edəcəyi qadın voleybolçular arasında Avropa çempionatının təqvimi bəlli olub. Avropa Voleybol Konfederasiyasının (CEV) yaydığı məlumata görə, çempionata sentyabrın 22-də Bakıda Rusiya-Ukrayna oyunu ilə start veriləcək. Həmin gün paytaxtımızda Azərbaycan millisi Macarıstan yığmasını qəbul edəcək. «A» qrupunda yer alan millimiz növbəti oyununu sentyabrın 24-də Polşa, bir gün sonra isə Almaniya voleybolçularına qarşı keçirəcək.

Çempionatın qrup mərhələsinin oyunları dörd gün ərzində baş tutacaq. Sentyabrın 26-27-də play-off mərhələsinin, 28-29-da dörddəbir, bir gün sonra isə yarımfinal mərhələsinin görüşləri təşkil olunacaq. Oktyabrın 1-də final qarşılaşması Bakıda Milli Gimnastika Arenasında oynanılacaq.

Yarışda ilk dəfə debüt edəcək Gürcüstan yığmasından fərqli olaraq, Azərbaycan dəfələrlə qitə birinciliyinin iştirakçısı olub. Voleybolçularımız ən yaxşı nəticəni 2005-ci ildə Xorvatiyada keçirilən Avropa çempionatında göstəriblər. Millimiz yarışı dördüncü pillədə başa vurub.

Ardıcıl iki çempionatda qızıl medallara Rusiya voleybolçuları sahib olublar. Rusiya millisi qızıl medal uğrunda görüşdə 2013-cü ildə Almaniyadan, 2015-ci ildə isə Niderlanddan üstün olub. Olimpiya Oyunlarının gümüş medalçısı Serbiya millisi isə sonuncu qitə birinciliyində bürünc medal qazanıb.

Xatırladaq ki, Azərbaycan millisi «A» qrupunda Almaniya, Polşa və Macarıstan yığma komandaları ilə birgə mübarizə aparacaq. «B» qrupunda Gürcüstan, İtaliya, Xorvatiya və Belarus yığmaları yarışacaq. Rusiya, Türkiyə, Bolqarıstan və Ukrayna milliləri «C», Serbiya, Niderland, Belçika və Çexiya yığmaları isə «D» qrupunda güclərini sınayacaqlar. «A» və «C» qrupunun oyunları Bakıda, «B» qrupunun qarşılaşmaları Tbilisidə, «D» qrupunun görüşləri isə Göygöldə təşkil olunacaq.

# Taekvondo üzrə ölkə çempionatına yekun vurulub

Azərbaycan Taekvondo Federasiyasının təşkilatçılığı ilə «Sərhədçi» Olimpiya İdman Mərkəzində keçirilən böyüklər arasında respublika çempionatına yekun vurulub.

Çempionatın ilk günündə beş çəki dərəcəsində qaliblər müəyyənləşib. Qızların yarışında Paniz Esmaeilpur (49 kq), Gülhanım Yeşildal (53 kq) bütün rəqiblərinə qalib gələrək çempion adına sahib olublar. Oğlanların mübarizəsində isə Qaşım Maqomedov (54 kq), Ələsgər Əliyev (68 kq) və Elvin Məmmədov (74 kq) fəxri kürsünün ən yüksək pilləsinə qalxıblar.

Çempionatın sonuncu günündə isə ümumilikdə on çəki dərəcəsində qaliblər müəyyənləşib. Kişilərin yarışında Fizam Mehdiyev (58 kq), Məmmədəli Quliyev (63 kq), Vladislav Subbotin (80 kq), Bayraməli Vəliyev (87 kq) və Ceyhun Həsənli (+87 kq) çempion adını qazanıblar. Qadınların mübarizəsində isə Nərminə Məmmədova (46 kq), Patimat Abakarova (57 kq), Darya Şkurko (62 kq), Fəridə Əzizova (67 kq), Marina Tedeeva (73kq) və Jalə Kazımova (+73 kq) fəxri kürsünün ən yüksək pilləsində qərarlaşıblar.

Çempionatda komanda hesabında qalib adına «Gilan» idman klubu layiq görülüb. «Neftçi» idman klubu ikinci, Mərkəzi Ordu İdman Klubu isə üçüncü yerin sahibi olub.

# Ueyn Runi 44 illik rekordu yenilədi

İngiltərənin «Mançester Yunayted» klubunun hücumçusu Ueyn Runi komandanın heyətində vurduğu qolların sayına görə Bobbi Çarltonun 44 il əvvəl müəyyənləşdirdiyi rekordu yeniləyib. 31 yaşlı futbolçu İngiltərə çempionatının 22-ci turunda səfərdə «Stok Siti» ilə oyunda fərqlənib. 2004-cü ildən «Mançester Yunayted»in heyətində çıxış edən Runi bu qarşılaşmada 250-ci qolunu vurub.

Xatırladaq ki, 1954-1973-cü illərdə klubun heyətində yer alan Bobbi Çarlton komandadakı karyerası ərzində 249 qol vurmuşdu.




## mozaika

### texnologiya




«IBM» şirkəti yaxın beş ildə insanların həyatını dəyişdirəcək beş texnologiyadan ibarət illik reytinqini dərc edib. Bulardan biri erkən mərhələdə psixi və koqnitiv pozuntular, neyrodegerenativ xəstəliklərə diaqnoz qoymağa imkan verən şifahi və yazılı danışığın təhlili sistemidir.

İkinci texnologiya «super qəhrəmanların görmə qabiliyyətidir». Şirkətin mütəxəssislərinin fikrincə, beş il sonra dalğa uzunluğu diapazonunda görməyə imkan verən cihazlar geniş yayılacaq. Bu, ətraf aləmin öyrənilməsi üçün yeni imkanlar yaradacaq.

Böyük məlumatlar üzərində iş sahəsində irəliləyiş gözlənilir. Ekspertlər hesab edirlər ki, böyük massivli informasiyanı səmərəli emal etməyə imkan verən texnologiyalar, məsələn, ərzaq və enerji istehsalı problemlərinin həllini tapmağa kömək edəcək.

«Çipdə laboratoriyalar» adlandırılan dördüncü texnologiya orqanizmin maye təhlili zamanı normadan ən kiçik sapmaları qeydə almağa imkan verəcək. Beləliklə, simptomların yaranmasından əvvəl orqanların pozulmaları barədə məlumat əldə etmək mümkün olacaq.

Beşinci texnologiya ətraf mühitin çirklənməsinin aşkarlanması ilə bağlıdır. Sensor texnologiyalar, silisium fotonikası və süni intellekt təhlükəli maddələri bir anda aşkara çıxarmağa imkan verəcək.

### qalaktika

## Doqquzuncu planetin Günəş sistemindən uzaqda yerləşməsinin səbəbi

Bir il öncə astronomlar Günəş sisteminin üfüqlərində yerləşdiyi ehtimal olunan yeni bir planetin mövcudluğuna dair dəlillər irəli sürmüşdülər. Həmin vaxtdan etibarən alimlər belə bir planetin mövcudluğu ilə bağlı müxtəlif araşdırmalar aparıblar.

Amerika astronomlarının elmi toplantısında alimlər tərəfindən təqdim olunmuş yeni hesabatlar naməlum planetin Günəş tərəfindən bir növ «oğurlandığını» irəli sürür. Doqquzuncu planetin Yer kürəsindən 10 dəfə böyük olması və Günəşdən 1000 dəfə uzaqda yerləşməsi ehtimal edilir. Bu zaman alimlər yeni planetin Günəşdən bu qədər necə uzaq düşdüyü sualını ortaya qoyurlar.

Astronavt Mayk Braun və astrofizik Konstantin Batigin belə bir fikir irəli sürüblər ki, həmin göy cismi digər planetlər kimi Günəşə normal uzaqlıqda formalaşıb, sadəcə ətrafında baş vermiş dağıdıcı proseslər nəticəsində təzyiqlə Günəşdən uzaqlaşıb.

Yeni Meksika Dövlət Universitetinin tədqiqatçıları Ceyms Vesper və Paul Mason isə simulyasiya vasitəsilə müxtəlif ölçülərdə olan bu cür naməlum planetlərin Günəş sistemi ilə qarşılaşmasını zamanı hansı proseslərin baş verəcəyini müşahidə ediblər. Məlum olub ki, bu cür planetlər əksər hallarda sistemdən uzaqlaşırlar.




### maraqlı

## Qədim binanın xarabalığı

Antarktida ərazisində orta əsr qəsrinə bənzəyən qədim binanın xarabalığı - nəhəng simmetrik tikililər «Google Earth» layihəsinin üçölçülü kameraları tərəfindən qeydə alınıb. Ekspertlər belə binaların yalnız insanlar tərəfindən tikilə biləcəyini ehtimal edirlər. Bu kəşf keçmiş zamanlarda qitədə yaşayışın olması barədə nəzəriyyəni təsdiqləyir.

Bir qədər əvvəl isə Antarktidada qədim insan sivilizasiyasına məxsus piramidaların tapıldığı xəbər verilmişdi. Hələ 1513-cü ildə Osmanlı İmperiyasının dənizçisi admiral Piri Rəis tərəfindən Antarktidanın və oradakı yaşayış məskənlərinin təsviri olan xəritə tərtib edilmişdir.

Antarktida 1820-ci ildə Faddey Bellinsqauzen və Mixail Lazarevin ekspedisiyası tərəfindən kəşf olunub.

### cəmiyyət

## Siqaret əleyhinə mübarizə iqtisadi fayda gətirir

Dünya Səhiyyə Təşkilatı (DST) və ABŞ Milli Xərçəng İnstitutu «Tütün və tütün sənayesinə nəzarət iqtisadiyyatı» adlı növbəti məruzəni dərc ediblər. Məruzədə deyilir ki, bir milyarddan çox adam siqaret çəkir, insanlar siqareti getdikcə daha tez-tez tərgidirlər, lakin siqaret çəkənlərin ümumi sayı əhalinin artması hesabına azalmaq bilmir. Buna görə də hökumətlər passiv siqaret çəkməyi məhdudlaşdırmalı və vergiləri artırmalıdırlar. Qeyd olunub ki, hər il 6 milyon adam siqaret çəkməyin fəsadlarından dünyasını dəyişir və DST-nin proqnozuna görə, bu rəqəm 2030-cu ilə qədər 8 milyon nəfərə çatacaq.

Məruzədə çox maraqlı statistika da gətirilib. Yaşı 15-dən çox olan insanların təqribən 21 faizi (1,1 milyard nəfər) siqaret çəkir. Kişilərin 35 faizi və qadınların təqribən 6 faizi siqaretə qurşanıb. Bununla bərabər, siqaret çəkmək dəbdən düşür. Bütün ölkələrdə, bütün yaş qrupları üzrə və gəlirlərdən asılı olaraq getdikcə daha az siqaret çəkirlər. Amma əhalinin artması səbəbindən siqaret çəkənlərin sayı azalmır. Yüksək gəlirli ölkələrdə yetkinlik yaşına çatmayanların siqaret almaq imkanları səmərəli satış qaydaları ilə məhdudlaşdırılıb. Yoxsul ölkələrdə də belə məhdudiyyətlər tətbiq edilir, amma bu heç də effektiv olmur.

Siqaret çəkənlərin təxminən 80 faizi orta və aşağı gəlirli dövlətlərdə, başqa sözlə, üçüncü dünya ölkələrində yaşayır. Siqaretə qurşananların təxminən 21 faizi (226 milyon nəfər) yoxsuldur. Bütün tütün narkomanlarının təxminən yarısı Cənub-Şərqi Asiyada yaşayır. Şərqi Aralıq dənizi hövzəsi və Afrika ölkələrində də siqaret çəkənlər çoxdur.

Məruzə müəllifləri siqareti tərgitmək istəyənlərə mərkəzləşdirilmiş şəkildə yardım göstərilməsinin böyük əhəmiyyət daşıdığını xatırladırlar. Onlar birbaşa iqtisadi faydanı təsdiqləyən tədqiqatlara istinad edirlər.




ELAN

«Vergilər» qəzetinə
2017-ci il üçün
abunə kampaniyası davam edir

Azərbaycanın bütün şəhər və rayonlarında «Vergilər» qəzetinin illik abunə haqqı (çatdırılma xərcləri daxil olmaqla) **31 manat 20 qəpik** təşkil edir.
Qəzetimizə abunə yazılmaq üçün abunə haqqını redaksiyamızın aşağıda göstərilən bank hesabına köçürməyiniz xahiş olunur.

VÖEN: 1300327481; H/h AZ46ATAZ01200012258000138090; «Atabank» ASC; Kod:507581
VÖEN: 9900006651; M/h: AZ50NABZ01350100000000032944; SWIFT: BIK ATAZAZ22


### Müdriklər deyib ki...

*«Bir damcı yalan okean boyda etibarın axırına çıxır».*

*A.P.Çexov*

